# QARABAĞ AZƏRBAYCANDIR!

**YAP-ın 30 illik tarixi zəngin və şərəfli inkişaf yoludur!**

5

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN:
### Nümunəvi əməkdaşlıq səviyyəsində olan müttəfiqlik



2

İLHAM ƏLİYEV: "Bugünkü səfər Azərbaycan-Gürcüstan qardaşlıq münasibətlərinə yeni təkan verəcək"




# Səs

№ 196 (6637) 26 oktyabr 2022-ci il. Qiymәti 60 qәpik


# İran tərəfindən BÖYÜK SƏHV



12

**"Bu birliyi sarsıdacaq heç bir qüvvə ola bilməz"**



7

**İsa Həbibbəyli AMEA-nın prezidenti seçilib**




3

**Partiyamızın 30 illik şərəfli və zəngin siyasi inkişaf yolunun öyrənilməsi, təbliğ edilməsi olduqca əhəmiyyətlidir**



4



**Hüseyn Cavid -140**

7



**Dünya bazarındakı qiymət artımı Azərbaycana necə təsir göstərir?**

10

**Azərbaycan öz müdafiə qabiliyyətini gücləndirir**



**Fransız hüquq müdafiəçisi Makronu rüsvay etdi**


CAUSEUR
Surtout si vous n'êtes pas d'accord
Monde
« Il n'y a pas de réconciliation sans confiance et il n'y a pas de confiance sans vérité ». Pour une paix juste dans le Caucase du Sud

10

# AZƏRBAYCAN VƏ GÜRCÜSTAN:

## Nümunəvi əməkdaşlıq səviyyəsində olan müttəfiqlik

### İLHAM ƏLİYEV: "Bugünkü səfər Azərbaycan-Gürcüstan qardaşlıq münasibətlərinə yeni təkan verəcək"



Cənubi Qafqazda yeni siyasi və iqtisadi reallıqların yarandığı dövrdə Prezident İlham Əliyevin Gürcüstana səfəri həm ikitərəfli, həm də regional əlaqələrin inkişafı baxımından böyük əhəmiyyətə malikdir. Xüsusi olaraq vurğulamaq yerinə düşər ki, Azərbaycanla Gürcüstan arasında diplomatik əlaqələr rəsmən 1992-ci ildə yaradılsa da, bu əlaqələr Ümummilli Lider Heydər Əliyevin 1993-cü ilin iyununda Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra özünün inkişaf mərhələsinə qədəm qoyub. Belə ki, 1993-cü ildən sonra hər iki ölkədə xarici və daxili siyasətdə milli mənafeləri təmin edən strategiya həyata keçirilib və 1995-ci ildə Azərbaycanla Gürcüstan arasında siyasi, iqtisadi, hərbi, kommunikasiya sahələrini əhatə edən müqavilə imzalanıb. Bununla yanaşı, 1995-ci ilin fevral ayında Bakıda Gürcüstanın, 1996-cı ilin martında isə Tbilisidə Azərbaycanın səfirlikləri fəaliyyətə başlayıb. Bu gün isə Gürcüstan-Azərbaycan münasibətlərinin inkişafı 2004-cü ilin ilin iyun ayında Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana səfəri iki dost, qardaş ölkələr arasında əlaqələrin daha geniş şəkildə davam etməkdədir. Bir sözlə, 30 il davam edən Azərbaycan-Gürcüstan münasibətləri ortaq strateji maraqlara söykənir və hər iki xalqı bir-birinə dostluq və strateji əməkdaşlıq əlaqələri bağlayır. İldən-ilə möhkəmlənən bu əlaqələrin daha da inkişaf etməsi üçün böyük layihələr həyata keçirilir. Cənubi Qafqaz regionunun indiki və gələcək inkişafı baxımından çox böyük əhəmiyyət kəsb edən bu münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması üçün tərəflərdə böyük siyasi iradə və istək var. Elə bu günlərdə, oktyabrın 24-də Prezident İlham Əliyevin Gürcüstana növbəti səfəri strateji əlaqələrin yeni mərhələyə yüksəlməsi baxımından böyük əhəmiyyətə malikdir. Məlum səfər Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin dəvəti əsasında reallaşıb və ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi, eyni zamanda, strateji əlaqələrin yeni mərhələyə - müttəfiqlik səviyyəsinə yüksəlməsi baxımından olduqca mühüm əhəmiyyətə malikdir.

### PREZİDENT İLHAM ƏLİYEV: "ƏMİNƏM Kİ, BUGÜNKÜ SƏFƏR AZƏRBAYCAN-GÜRCÜSTAN QARDAŞLIQ MÜNASİBƏTLƏRİNƏ YENİ TƏKAN VERƏCƏK"

"Mən burada özümü evdəki kimi hiss edirəm. Yenidən Gürcüstanda olmağıma çox şadam. Baş nazir İrakli Qaribaşvili ilə görüşlərimiz tez-tez keçirilir. Təkcə keçən il cənab Qaribaşvili iki dəfə Azərbaycanda səfərdə olub. Eyni zamanda, beynəlxalq təşkilatların keçirdiyi tədbirlər çərçivəsində də biz tez-tez görüşürük".Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanda mətbuata bəyanatında söyləyib."Əminəm ki, bugünkü səfər Azərbaycan-Gürcüstan qardaşlıq münasibətlərinə yeni təkan verəcək. Bu münasibətlər çox dərin ənənələr üzərində qurulub. Əsrlər boyu xalqlarımız dostluq, qardaşlıq və mehriban qonşuluq şəraitində yaşamışlar", - deyə dövlətimizin başçısı vurğulayıb.

### AZƏRBAYCAN PREZİDENTİ: "GÜRCÜSTANLA STRATEJİ TƏRƏFDAŞLIQ ƏLAQƏLƏRİMİZ MÜTTƏFİQLİK SƏVİYYƏSİNƏ YÜKSƏLİB"

Prezident İlham Əliyev Gürcüstanda mətbuata bəyanatında bildirib ki, bu gün strateji tərəfdaşlıq əlaqələrimiz müttəfiqlik səviyyəsinə yüksəlib. Çünki bir çox sahələr üzrə biz fəal əməkdaşlıq edirik. Dövlətimizin başçısı beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan və Gürcüstanın bir-birini daim dəstəklədiyini qeyd edərək deyib ki, eyni zamanda, ikitərəfli formatda həyata keçirilən bir çox önəmli layihələr təkcə ölkələrimiz üçün deyil, bölgə üçün, bütün Avropa üçün xüsusi əhəmiyyət daşıyır.Səfər zamanı Azərbaycan və Gürcüstan liderləri mətbuata bəyanat verərkən ikitərəfli əlaqələrin inkişafına toxunmaqla yanaşı, Bakı və Tbilisinin geosiyasi proseslərin təsiri ilə regionda yenidən formalaşdırılan nəqliyyat dəhlizlərində aparıcı roluna diqqət çəkib.Prezident İlham Əliyev qeyd edib ki, dünyada Xəzər üzərindən Azərbaycan, Gürcüstan və qonşu ölkələrdən keçən nəqliyyat yollarına böyük ehtiyac var: "Yeni nəqliyyat yolları həm geosiyasi vəziyyətlə bağlı, həm də bütövlükdə yol boyunca yerləşən bütün ölkələrin maraqlarına cavab verir. Ona görə Bakı-Tbilisi-Qars dəmir yolunun ötürmə qabiliyyətinin 5 milyon tona çatdırılması, eyni zamanda, Gürcüstan limanlarından istifadə edərək Orta Asiyadan və bütövlükdə Asiyadan Qərb istiqamətinə və əks istiqamətə ötürülən yüklərin həcminin artırılması artıq yeni reallıq yaradır. Biz buna hazır olmalıyıq..."

Prezident İlham Əliyev, eyni zamanda vurğulayıb ki, Azərbaycanın sərmayəsi ilə həyata keçirilən layihələr bizim əməkdaşlığımızı daha da gücləndirir. Dövlət başçısı qeyd edib ki, ticarət dövriyyəmizin artması bizi sevindirir. Bu ilin doqquz ayında qarşılıqlı ticarət dövriyyəsi bir milyard dollara yaxınlaşıb. Əlbəttə ki, Azərbaycanın sərmayəsi ilə həyata keçirilən layihələr bizim əməkdaşlığımızı daha da gücləndirir. Azərbaycan Gürcüstana üç milyard dollardan çox sərmayə qoyub. Bu sərmayə qarşılıqlı faydalı sərmayədir, çünki hər iki tərəfin maraqlarına cavab verir.

### PREZİDENT İLHAM ƏLİYEV: "BİZİM GÜRCÜSTANLA DOSTLUQ VƏ QARDAŞLIQ MÜNASİBƏTLƏRİMİZ TRANZİT ÜÇÜN İMKANLAR YARADIR"

"Biz Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ötürmə qabiliyyətini 15 milyon tondan 25 milyon tona qədər çatdırmaq istəyirik. Artıq bütün göstərişlər verilib və vəsait də ayrılacaq. Ona görə Gürcüstanla Azərbaycan arasında nəqliyyat sahəsində sıx koordinasiya aparılmalıdır. Çünki bizim birgə layihələrimiz eyni vaxtda tamamlanmalıdır", -deyən Prezident İlham Əliyev qeyd edib ki, tranzit ölkə olmaq üçün qonşularla yaxşı münasibətlərin vacibliyini qeyd edən dövlətimizin başçısı deyib ki, bu münasibətlər olmadan heç bir ölkə etibarlı tranzit ölkəyə çevrilə bilməz: "Bizim isə Gürcüstanla dostluq, qardaşlıq, tərəfdaşlıq münasibətlərimiz bu imkanları yaradır. Hazırda enerji resurslarına dünyada və Avropada böyük tələbat olduğu üçün Gürcüstanla Azərbaycan bu məsələdə bir cəbhədən hərəkət edərək, bir nöqtəyə vuraraq öz milli maraqlarını təmin edəcək".

Dövlət başçımız onu da bildirib ki, Gürcüstanın Baş nazir İrakli Qaribaşvili ilə danışıqların mərkəzində bölgədə gedən proseslər, təhlükəsizliklə bağlı məsələlərin müzakirəsi olub. İkinci Qarabağ müharibəsindən sonra yaranmış vəziyyətlə, Ermənistanla Azərbaycan arasında sülh danışıqlarının gedişi ilə bağlı Gürcüstanın Baş nazirini məlumatlandırdığını qeyd edən dövlətimizin başçısı deyib: "Biz hesab edirik ki, Qarabağ müharibəsi başa çatandan sonra Azərbaycanla Ermənistanın sülh müqaviləsi imzalamasının vaxtı gəlib çatıb. Hər halda bizim niyyətimiz bundan ibarətdir. Biz beş əsas prinsipdən ibarət təkliflərimizi Ermənistan tərəfinə təqdim etdik. Ümid edirəm ki, Ermənistan tərəfi də siyasi iradə göstərərək beynəlxalq birlik tərəfindən tanınan bu əsas təməl prinsiplər əsasında Azərbaycanla sülh müqaviləsini imzalayacaqdır".

### BAŞ NAZİR İRAKLİ QARİBAŞVİLİ: "PREZİDENT İLHAM ƏLİYEVİN AZƏRBAYCAN-GÜRCÜSTAN ƏMƏKDAŞLIĞINA TÖHFƏSİ BÖYÜKDÜR"

"Gürcüstanla Azərbaycan arasında misilsiz dostluq və sıx münasibətlər var. Həmin münasibətlər tarixi əlaqələrimizə, qarşılıqlı hörmətə söykənir. Əminəm ki, hazırkı əməkdaşlığımız ölkələrimizin və xalqlarımızın rifahı naminə daha yüksək səviyyəyə qalxacaq".Bu barədə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mətbuata bəyanatında bildirib.Prezident İlham Əliyevin Azərbaycanın və Gürcüstanın bu qədər yaxın olmasına böyük töhfə verdiyini qeyd edən İrakli Qaribaşvili bugünkü söhbətdə ölkələrimiz arasında sıx tərəfdaşlığın bir daha vurğulandığını söyləyib.Gürcüstanın Baş naziri Cənubi Qafqazda əməkdaşlıq formatının yaranmasına tərəfdar olduğunu deyərək bildirib: "Bu gün dünyada baş verən hadisələri, regional vəziyyəti, həmçinin Azərbaycan və Ermənistan arasında sülh prosesini nəzərdən keçirdik. Şəxsən mən və bizim hökumətimiz sülh siyasəti yürütmək üçün əlimizdən gələni edəcəyik"."Regionda mehriban qonşuluq əlaqələri heç bir əməkdaşlıq formatına zidd deyil, bunu yalnız gücləndirəcək və əminəm ki, biz bir yerdə çox iş görə bilərik", - deyə İrakli Qaribaşvili əlavə edib.Azərbaycan Prezidentinin Praqada irəli sürdüyü təşəbbüsü dəstəkləyən Baş nazir Cənubi Qafqazda əməkdaşlıq formatının yaranmasına tərəfdar olduğunu bildirib. Gürcüstanın Baş naziri İrakli Qaribaşvili isə yeni yaranan nəqliyyat dəhlizlərinin əhəmiyyətinə toxunarkən deyib ki, Bakı ilə Tbilisi tarixi layihələrə imza atıb və bundan sonra da həmin ikitərəfli əlaqələri daha da sürətləndirmək əzmindədirlər: "Biz iqtisadiyyat, enerji, nəqliyyat məsələlərini nəzərdən keçirdik. Gürcüstan Azərbaycan üçün önəmli ölkədir və eyni zamanda, Azərbaycan da Gürcüstanın strateji tərəfdaşıdır. Biz artıq reallaşdırdığımız mühüm layihələri nəzərdən keçirdik. Bunlar tarixi layihələrdir - Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu və Orta Dəhliz. Bizim həyata keçirdiyimiz layihələr bundan sonra da irəliyə aparılacaq və onları daha da sürətləndirmək əzmindəyik".Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana bu səfəri bir daha onu göstərdi ki, Azərbaycan-Gürcüstan münasibətləri ortaq strateji maraqlara söykənir və hər iki xalqı bir-birinə dostluq və strateji əməkdaşlıq əlaqələri bağlayır. İldən-ilə möhkəmlənən bu əlaqələrin daha da inkişaf etməsi üçün böyük layihələr həyata keçirilir. Cənubi Qafqaz regionunun indiki və gələcək inkişafı baxımından çox böyük əhəmiyyət kəsb edən bu münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoymaqdadır. Dövlət başçımızın söylədiyi kimi: "Yenə də demək istəyirəm ki, bütün bu uğurların təməlində bizim dostluğumuz, xalqlarımızın dostluğu, liderlərin dostluğu və birgə fəaliyyət durur".

**RƏFİQƏ KAMALQIZI**

# YAP ümumxalq partiyasına çevrilib!

## Qubada Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyinə həsr olunmuş tədbir keçirilib






Dünən Quba rayon Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə olunub. Quba Şəhidlər Xiyabanı ziyarət edilib, şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri düzülüb. Tədbirdə Azərbaycanın Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Quba rayon təşkilatının sədri Fidan Hüseynova vurğulayıb ki, Yeni Azərbaycan Partiyası fəaliyyətinin ilk günlərindən bütün xalqın partiyası olub: "Yeni Azərbaycan Partiyası fəaliyyətinin ilk günündən özünə aydın vəzifələr müəyyənləşdirdi: dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsi. Bunlar təkcə proqram vəzifələri olaraq kağız üzərində qalmadı. Yeni Azərbaycan Partiyası tarixi nailiyyətlərə imza ataraq Azərbaycana tərəqqi və Qələbə bəxş etdi".

Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev YAP-ın ölkəmizdə ən nüfuzlu partiya olduğunu söyləyib. O bildirib ki, Heydər Əliyev dühasının Yeni Azərbaycan Partiyasının proqramında ifadəsini tapmış dövlətçilik strategiyası son 30 ildə bütün istiqamətlərdə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsiplərinə söykənib. Bu müddətdə hüquqi dövlət quruculuğu, ölkənin iqtisadi və sosial inkişafı, Azərbaycanda vətəndaş cəmiyyətinin qurulması, xarici siyasət məsələlərinin həlli istiqamətində mühüm işlər görülüb. Bunlar Yeni Azərbaycan Partiyasına olan inamı, etimadı daha da gücləndirib və sarsılmaz edib.

Tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Azər Badamov vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası yarandığı zamandan məqsədyönlü fəaliyyət göstərərək ümumxalq partiyasına çevrilib. Yeni Azərbaycan Partiyası həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə böyük uğurlara imza atıb.

YAP İdarə Heyətinin üzvü Elnarə Akimova vurğulayıb ki, 30 illik yubileyə Yeni Azərbaycan Partiyası zəfər qazanmış bir ölkənin hakim partiyası olaraq daxil olur. Yalnız bu misilsiz qələbədə deyil, əslində, bu gün partiyanın adı ilə bağlı olan hər bir dəyərli məqamda, nailiyyətlərdə ulu öndər Heydər Əliyevin təməlini qoyduğu müasir Azərbaycanın obrazı var.

Tədbirdə, həmçinin Vətən müharibəsi Qəhrəmanı, polkovnik Nizami Mövlanov, Vətən Müharibəsi Qəhrəmanı Mehrab Niftəliyevin anası Xalidə Niftəliyeva, partiyanın fəal gənci Tahirəxanım Rzayeva çıxış ediblər. Sonra partiyanın və rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup şəxs fəxri fərmanla təltif edilib. Tədbirin sonunda YAP sıralarına yeni qəbul olunmuş üzvlərə partiya vəsiqələri təqdim edilib.

# İsa Həbibbəyli AMEA-nın prezidenti seçilib

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti vəzifəsinə seçki başa çatıb. SİA-nın məlumatına görə, AMEA-nın Ümumi yığıncağında Nizamnaməyə uyğun olaraq Seçki Komissiyası yaradılıb və səsvermə keçirilib. AMEA-nın prezidenti vəzifəsinə akademik İsa Həbibəylinin namizədliyi təsdiqlənib. Qeyd edək ki, İ.Həbibbəyli bu vəzifəyə tək namizəd olub.




# Anti-Azərbaycan xoruna "Rossiya-24" də qoşuldu

**Nə qədər gec deyil, sözdə Azərbaycanla müttəfiq olduğunu bəyan edən Rusiyanın ali siyasi orqanları artıq bu reallığı əməli şəkildə də isbatlamalı, sözügedən təxribatçılıqların və TV rüsvayçılıqlarının qarşısının alınması yönündə sərt mövqeyini ifadə etməli, hətta cəzalara belə əl atmalıdır!**




Rusiya TV-lərində anti-Azərbaycan xarakterli təxribatçı süjetlərin və proqramların yayımı davam etdirilir. Bu dəfə həmin xora ənənəvi olaraq ölkəmizə qarşı açıq erməni-pərəstlik mövqeyini ortaya qoyan "Rossiya-24" kanalı da qoşuldu. Belə ki, süjetdə Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh sazişinin Ermənistanın milli maraqlarına uyğun olmadığı, Azərbaycanın heç bir güzəştə getmədiyi, Qarabağın Azərbaycanın tərkibində qalacağı təqdirdə Azərbaycanın guya erməni əhalisini "etnik təmizləməyə uğradacağı" tipli təxribatçı fikirlər səsləndirilib.

### Bu məqsədlər birbaşa Rusiya Federasiyasında fəaliyyət göstərən erməni lobbisinin əli ilə icra edilir

Bundan başqa, süjetdə Vaşinqton sənədinə müvafiq olaraq Bakı və İrəvanın Rusiya sülhməramlılarının Qarabağdan çıxarılmasını müzakirə edə biləcəkləri qeyd olunub. "Həmin sənəddə Azərbaycanın suverenliyinin xatırladılması əsas qərarların Bakı tərəfindən qəbul olunacağına dəlalət edir. Baxın, bu da Vaşinqtonun əli...", deyə kadrarxası mətndə süjetin müəllifinin təxribatçı fikirləri qeyd olunub. Görünür, son bir neçə gündə anti-Azərbaycan xoruna qoşulan Rusiya telekanalları - istər dövlətə bağlı, istərsə də müstəqil - onlar qarşılarına bir sıra məqsədlər qoyublar və bu məqsədlər birbaşa Rusiya Federasiyasında fəaliyyət göstərən erməni lobbisinin əli ilə icra edilir.

### Yenə də Semyon Baqdasarov (Baqdasaryan), Hayk Xalatyan və s...

Diqqətçəkən budur ki, "Rossiya-24"ün süjeti yenə də Semyon Baqdasarov (Baqdasaryan), Hayk Xalatyan və s. kimi "başbilən erməni politoloqlarının" sərsəm şərhləri üzərində ictimailəşdirilir. Bu kimi erməni təxribatçıları verlişdə açıq-aydın bəyan




edirlər ki, separatçıların mövcudluğu regionda əsl dayanıqlı sülhü təmin edir və s (?!).

Lakin daha bir məsələ ondadır ki, adıçəkilən telekanal və bu kimi digər Rusiya telekanalları Vladimir Putinin 2020-ci ilin 10 noyabrında üçtərəfli bəyanata atdığı imzasını, habelə 44 günlük müharibə zamanı Qarabağın Azərbaycanın suveren ərazisi olması barədəki bəyanatını unudublar. Yaxud, onlara "krılaşıq" edən erməni lobbisinin kirli və növbəti müharibə qoxusu verən pulları Putinin imzasından və sözündən daha önəmliymiş...




### Həmin məsuliyyət Rusiya telekanallarının da boyunlarına yazılacaq!

Hər halda, zaman və bənzər oyunbazlıqlar bütövlükdə regionda dayanıqlı sülhün təmin olunması prosesinə kəskin xələl gətirir və əgər belə davam edərsə günahların və məsuliyyətlərin bir qismi Ermənistan hakimiyyətinin, Qarabağdakı separatçıların, onlara havadarlıq etmək məqsədi ilə İrəvana gedən saxta ATƏT missiyasının, bəlli Qərb dairələrinin üzərində olması ilə yanaşı, həm də bu kimi Rusiya telekanallarının da boyunlarına yazılacaq.

Və ən əsası! Hələ ki, nə qədər gec deyil, sözdə Azərbaycanla müttəfiq olduğunu bəyan edən Rusiyanın ali siyasi orqanları artıq bu reallığı əməli şəkildə də isbatlamalı, sözügedən təxribatçılıqların və TV rüsvayçılıqlarının qarşısının alınması yönündə sərt mövqeyini ifadə etməli, hətta cəzalara belə əl atmalıdır. Bu baş verərsə, onda özünü ölkəmizə müttəfiq bilən Rusiyanın da prosesin tənzimlənməsindəki səmimiyyətinə müəyyən qədər inanmaq, etimad göstərmək olar. Əks halda isə hər şey tam əksinədir...

**Rövşən RƏSULOV**

# Yeni Azərbaycan Partiyası - 30

## Partiyamızın 30 illik şərəfli və zəngin siyasi inkişaf yolunun öyrənilməsi, təbliğ edilməsi olduqca əhəmiyyətlidir

**30 il böyük inkişaf yolu keçən Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurət, o dövrdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. Prezident İlham Əliyev sədri olduğu partiyanı belə dəyərləndirir: ”Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır”.**

Hər bir siyasi partiyanın keçdiyi yolun əsaslarına diqqət yetirmək, onun fəaliyyətinin xronikası və dinamikasını tədqiq etmək üçün bir sıra müxtəlif məqamlara toxunmaq lazımdır. Bunlardan biri partiyanın yarandığı şərait, daha dəqiq desək, hansı ictimai-siyasi şəraitdə yaranması və fəaliyyət göstərməsidir. Ümummilli lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasını şəraitin diktəsi ilə meydana gələn tarixi zərurət kimi qiymətləndirərək söyləyirdi: ”Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içindən çıxmış zərurətdir. Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyətə başlayan şəxslərin şəxsi təşəbbüskarlığı ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərənin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmışdır”.



*Nərgiz Babayeva, YAP Gənclər Birliyinin üzvü, Bakı Gənclər Mərkəzinin direktoru*

Həmin vaxt hakimiyyətdə olan AXC-Müsavat liderlərinin bacarıqsızlığı, səriştəsizliyi, naşılığı ucbatından səriştəsiz qüvvələr öz antimilli, yəni milli maraqlardan uzaq siyasətləri ilə Azərbaycanı parçalanma, hətta məhvolma təhlükəsi ilə qarşı-qarşıya qoymuşdular. Belə bir mürəkkəb şəraitdə Azərbaycan xalqı xilası böyük dövlət xadimi və dahi şəxsiyyət Heydər Əliyevdə görürdü. Həmin dövrdə Ümummilli lider Heydər Əliyev Naxçıvan Ali Məclisinin Sədri idi. 1992-ci ilin oktyabrın 16-da 91 nəfər ziyalı ümummilli liderimizə müraciət etdi. Müraciətdə qeyd edilirdi ki, ”öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir”. Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Qeyd edək ki, ulu öndər Heydər Əliyev ziyalılara göndərdiyi cavab məktubu dövrü mətbuatda dərc olundu

Partiyamızın 30 illik şərəfli və zəngin siyasi inkişaf yolunun öyrənilməsi, təbliğ edilməsi məqsədilə işlərin görülməsi - tədbirlər keçirilməsi olduqca əhəmiyyətlidir. Bu, həm müasir müstəqil Azərbaycanın siyasi tərəqqi tarixinin, siyasi sistemin inkişaf qanunauyğunluqlarının, həm də mənəvi - ümumxalq sərvətimiz olan Heydər Əliyev irsinin, Prezident İlham Əliyevin alternativsiz siyasətinin əsaslarının dərindən öyrənilməsi baxımından vacibdir.

Sözsüz ki, Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə çoxsaylı nailiyyətlərə imza atan Yeni Azərbaycan Partiyası yeni mərhələdə - bundan sonra da öz üzərinə düşən vəzifələri layiqincə, şərəflə yerinə yetirməklə milli tərəqqiyə mühüm töhfələr verəcəkdir. Çünki YAP, Ümummilli Liderimizin dediyi kimi, dünənin, bu günün və sabahın partiyasıdır.

## İsrailli sabiq nazirdən İrəvana və Tehrana tərs şapalaq!

### Ayub Kara: "Biz sistematik şəkildə foto və videoları saxtalaşdırmaqla özünün gündəmini müəyyən edən, eləcə də İran İslam Respublikasının "proksi-dövlətinə" çevrilmiş ölkəni dəstəkləməməliyik”

ŞƏRH

**İsrailin nüfuzlu ”Israelhayom” nəşrində noyabrın 1-də keçiriləcək seçkilərə ”Likud” partiyasından namizədliyini irəli sürmüş sabiq nazir Ayub Karanın ”Nəyə görə mən İsrailin sabiq nazir kimi Azərbaycanın tərəfində dayanmışam” sərlövhəli məqalə ilə çıxış edib. SİA həmin məqalədən bəzi çıxarışları təqdim edir:**



*Mən Qafqazın Xirosiması adlandırılan Ağdamın vəziyyətindən dəhşətə gəlmişdim. Mənim orada gördüklərim mənə Birinci Livan müharibəsi zamanı şahidi olduğum dəhşətli situasiyanı xatırlatdı. Qarabağda baş verənlər daha ürəkağrıdıcıdır: ən azından Livandakı çaylarda balıqlar üzürdü, səhrada isə mal-qara var idi. Qarabağda isə hər hansı canlını görmək mümkün deyildi.

Ayub Kara İkinci Qarabağ müharibəsindən sonra aparılan danışıqlar prosesində Ermənistan rəhbərliyinin ayağısürüşkənliyi ilə bağlı da qeydlərini aparıb və bildirib ki, bu kimi davranışlar regionda sülhün və sabitliyin, çiçəklənmə və tərəqqinin qarşısını alır.

*Azərbaycan danışıqlar masasına əyləşərək Ermənistanla sülh müqaviləsini imzalamağa hazır idi ki, həm öz xalqı üçün, həm də erməni xalqı üçün işıqlı gələcəyi təmin etsin. Ötən ilin avqustunda Azərbaycan və Ermənistan uzunmüddətli sülh sazişini imzalamağa hazır idilər və bu da dənizə çıxa bilməyən Ermənistanın həmin statusuna son qoyacaqdı, eləcə də Azərbaycanın və Ermənistanın işıqlı gələcəklərini, sabitliklərini qurmağa təmin edəcəkdi.

Lakin iki ölkə arasında aparılan danışıqlar zamanı Ermənistanın baş naziri Nikol Paşinyan son anda daha əvvəl qaldırılmış məsələlərlə bağlı əldə edilmiş razılaşmalardan kənara çəkildi və Azərbaycanın Qarabağ və yeddi rayon üzərindəki suveren hüquqlarını tanımaqdan imtina etdi, Azərbaycan, Ermənistan və Rusiya arasındakı Üçtərəfli razılaşmanı pozdu.

İsrailli sabiq nazir Ermənistanı İranın altına yıxılmış ölkə olaraq təsəvvürə gətirib və ona da işarə edib ki, bu ölkə gündəmdə qalmaq üçün öz tarixini saxtalaşdırır və zorla dünya ictimaiyyətinə sırımağa cəhd edir.

*Biz multikulturalizmin, dini dözümlüyün və prüalizmin milli siyasətə aid edildiyi bir ölkəni dəstəkləməliyik. Hansı ki, bu ölkə etnik təmizlənməyə məruz qalmışdı və azərbaycanlıların öz ölkələrinin beşdə bir hissəsini itirməsi ilə nəticələnmişdi.

Və biz sistematik şəkildə foto və videoları saxtalaşdırmaqla özünün gündəmini müəyyən edən, eləcə də İran İslam Respublikasının ”proksi-dövlətinə” çevrilmiş ölkəni (Ermənistanı nəzərdə tutur-R.R.) dəstəkləməməliyik.

***Rövşən RƏSULOV***

## “Azərbaycanla Gürcüstan bir çox sahələr üzrə fəal əməkdaşlıq edir”

“Gürcüstan və Azərbaycan rəhbərlərinin görüşü və Prezident İlham Əliyevə göstərilən hörmət, ehtiram və səmimiyyət bir daha bunu deməyə əsas verir ki, Azərbaycan və Gürcüstan arasında olan əlaqələr ən yüksək səviyyədədir. Əlbəttə bu münasibətlərin dostluq qardaşlıq zəminində təmin olunması hər iki ölkənin inkişafına da xüsusi töhfə vermiş olar”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Vüqar İskəndərov deyib.



Vüqar İskəndərov bildirib ki, bu əlaqələr müasir dövrdə regionun inkişafı və əbədi sabitliyi üçün də mühüm önəm kəsb edir: ”Prezidentin Gürcüstana səfəri çərçivəsində səslənən fikirlər də bunu bir daha təsdiqləyir. Xatırladım ki, oktyabrın 24-də Mçxeta rayonundakı Muxrani sarayında ”Qarabağ xanlığının irsi” sərgisi ilə tanışlıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mətbuata bəyanatlarla çıxış etdilər. Bu zaman isə hər iki lider maraqlı məqamlara toxundular. Prezident İlham Əliyev bəyan etdi ki, iki ölkənin strateji tərəfdaşlıq əlaqələri demək olar ki, müttəfiqlik səviyyəsinə qalxıb. Çünki Azərbaycanla Gürcüstan bir çox sahələr üzrə fəal əməkdaşlıq edir. Bu iki qonşu və dost ölkə istər ikitərəfli formatda mühüm addımlar atır, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birini dəstəkləyir. İkitərəfli əməkdaşlıqdan söz düşmüşkən, bildirim ki, bu ilin 9 ayında iki ölkə arasında qarşılıqlı ticarət dövriyyəsi bir milyard dollara yaxınlaşıb. Heç şübhəsiz ki, dövlət başçısının da bəyan etdiyi kimi Azərbaycanın sərmayəsi ilə həyata keçirilən layihələr iki dövlət arasındakı əməkdaşlığı daha da gücləndirir. Məlumat üçün bildirim ki, Azərbaycan Gürcüstana 3 milyard dollardan çox sərmayə qoyub. Bu sərmayə qarşılıqlı faydalı sərmayədir, çünki hər iki tərəfin maraqlarına cavab verir”.

Deputat qeyd edib ki, Gürcüstan-Azərbaycan əməkdaşlığını xarakterizə edən bir məqam da bir çox önəmli layihələrin reallaşdırılmasıdır: ”Həmin layihələr təkcə ölkələrimiz üçün deyil, bölgə üçün, bütövlükdə Avropa üçün xüsusi əhəmiyyət daşıyır. Bəyan edildiyi kimi bu sırada enerji və qaz ixracı ilə bağlı məsələlər ön sıradadır. Azərbaycan dünya bazarlarına qaz ixracatını artırmaq fikrindədir. Bu il 22 milyard kubmetr ixracımız olacaq, gələn il daha da artacaq. Bu ilin iyul ayında Avropa Komissiyası ilə Azərbaycan arasında imzalanmış enerji sahəsində strateji tərəfdaşlığa dair Memorandumda göstərilir ki, növbəti 5 ildə Azərbaycan Avropaya qaz ixracını iki dəfə artıracaq. Yəni bizim niyyətimiz bundan ibarətdir, imkanlarımız da buna çatır. Beləliklə, 2027-ci ildə Azərbaycanın təkcə Avropaya qaz ixracatı 20 milyard kubmetrə çatacaq. Əlbəttə ki, səfər çərçivəsində bu məsələ diqqət mərkəzində oldu. Yəni qaz ixracı ilə bağlı görüləcək işlər ikitərəfli formatda müzakirə olundu. Eyni zamanda bəyan edildi ki, bununla bağlı gələcək müzakirələrə ehtiyac var. Bundan başqa o da məlum oldu ki, gələn il Bakı-Tbilisi-Ceyhan neft kəməri xətti ilə ixrac artırılacaq. Azərbaycan bununla bərabər hazırda istismarda olmayan Bakı-Supsa neft kəmərindən də istifadə etmək istəyir. Təbii ki, qaz və enerji ilə bağlı əməkdaşlıq gündəliyində kifayət qədər zəngin maddələr var. Sadəcə, fikrimizi ümumiləşdirsək deyə bilər ki, dünyada enerjiyə tələbat artdığı bir zamanda Azərbaycan və Gürcüstan arasında əlaqələr iki ölkənin bir cəbhədə duraraq öz maraqlarını təmin etməsinə imkan verir. Əlbəttə hazırda Azərbaycan elə bir gücdədir ki, onunla strateji, iqtisadi və s. sahələrdə tərəfdaşlıq ancaq həmin dövlətin xeyrinə atılmış addım olar. Çünki Azərbaycan həm həyata keçirdiyi layihələrdə, həm də digər məsələlərdə sözünə sahib olan və inanılmış bir tərəfdaşdır”.

***A. İlhamqızı***

# Yeni Azərbaycan Partiyası - 30

# YAP-ın 30 illik tarixi zəngin və şərəfli inkişaf yoludur!

## Bölgələrdə Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 30 illiyi münasibətilə geniş tədbirlər keçirilir

### Cəlilabad

Oktyabrın 25-də Yeni Azərbaycan Partiyası (YAP) Cəlilabad rayon təşkilatı partiyanın yaradılmasının 30-cu ildönümünə həsr edilmiş tədbir keçirib. Öncə tədbir iştirakçıları xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə tər güllər düzərək xatirəsinə ehtiramlarını bildiriblər. Cəlilabad Şəhidlər Xiyabanında ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş





şəhidlərimizin məzarları ziyarət olunub, önünə tər güllər düzülərək ehtiramla yad edilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, ulu öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyinə həsr edilmiş videoçarx nümayiş olunub.

YAP Cəlilabad rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı xalqımızın ümummilli lideri Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının 30 il ərzində şərəfli yol keçdiyini, ümumxalq partiyasına çevrildiyini diqqətə çatdırıb. Mirsüleyman Mirxaslı bildirib ki, ümummilli lider Heydər Əliyevin parlaq ideyaları əsasında xalqımızın və dövlətimizin bu gün özünün ən qüdrətli dövrünü yaşaması Yeni Azərbaycan Partiyasının ali məqsədlərini uğurla həyata keçirməsinin bariz təzahürüdür.

Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilov çıxışında qeyd edib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət, qəbul etdiyi dövlət proqramları, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrinin inkişafı ilə nəticələnib, Azərbaycan nəinki regionda, beynəlxalq səviyyədə nüfuzlu, qüdrətli dövlətə çevrilib.

Konfransda YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Anar İsgəndərov çıxış edərək bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan YAP-ın 30 illik tarixi zəngin və şərəfli inkişaf yoludur. Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası bu gün cənab İlham Əliyevin Sədrliyi ilə xalqımızı uğurlara, qələbələrə aparan yolun bələdçisi və ən etibarlı, inamlı siyasi istinadgah yeridir.

Milli Məclisin deputatı Əli Hüseynli çıxışında Heydər Əliyev ideyalarının böyük zəfərlərə yol açdığını söyləyib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın tarixi nailiyyətlər qazandığını, möhtəşəm Qələbəyə imza atmaqla tarix yazdığını vurğulayıb.

Milli Məclisin deputatı Malik Həsənov Yeni Azərbaycan Partiyasının qələbələr partiyası olduğunu söyləyib. Bildirib ki, Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində əldə edilən qələbə ilə özünün ən böyük məramını gerçəkləşdirdi, ölkəmizin ərazi bütövlüyünü təmin etdi.

Milli Məclisin deputatı Elman Nəsirov çıxışında vurğulayıb ki, Yeni Azərbaycan Partiyasının tarixi müstəqil Azərbaycan dövlətinin inkişaf salnaməsidir. Ulu Öndərin siyasi mirası olan Yeni Azərbaycan Partiyası ötən 30 il ərzində tarixi uğurlara imza atıb. YAP Cəlilabad rayon təşkilatının fəalları Rəxşəndə Qasımova, Yeganə Rzayeva və Vətən müharibəsi iştirakçısı Aqil Nəzərov çıxışlarında bildiriblər ki, ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdışı ilə Azərbaycana sabitlik, dirçəliş və fasiləsiz inkişaf gətirdi. Bu gün inkişaf strategiyası Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin uğurlu siyasətində öz bəhrələrini verir.

Sonra partiyanın və rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup şəxs fəxri fərmanla təltif edilib. Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul edilmiş şəxslərə üzvlük vəsiqələri təqdim edilib.

### Kürdəmir

Oktyabrın 25-də Yeni Azərbaycan Partiyası (YAP) Kürdəmir rayon təşkilatı partiyanın yaradılmasının 30-cu ildönümü münasibətilə tədbir keçirib.

Əvvəlcə tədbir iştirakçıları Kürdəmir Şəhidlər Xiyabanını və ulu öndər Heydər Əliyevin abidəsini ziyarət ediblər. Heydər Əliyev Mərkəzində Ümummilli Liderin həyat və fəaliyyətini əks etdirən eksponatlara və kürdəmirli şəhidlərə həsr edilmiş guşəyə baxış keçirilib.






Tədbir Dövlət Himninin səsləndirilməsi, ulu öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Sonra Yeni Azərbaycan Partiyasının 30 illik fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Kürdəmir rayon təşkilatının sədri Ayaz Cəbrayılov bildirib ki, Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranmış partiyadır. Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu partiya 30 il ərzində zəngin, şərəfli inkişaf yolu keçib. Yeni Azərbaycan Partiyası siyasi xətti və fəaliyyəti ilə xalqın partiyasına çevrilib. Azərbaycan xalqının xilaskarı, partiyamızın qurucusu, ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətindən, eyni zamanda, Yeni Azərbaycan Partiyasının 30 il ərzində ölkəmizin ictimai-siyasi həyatında oynadığı roldan ətraflı bəhs edib. Qeyd edib ki, ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası şərəfli inkişaf yolu keçərək bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə tarixi müvəffəqiyyətlər qazanır. Azərbaycan 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə özünün qələbələr salnaməsinə daha bir möhtəşəm səhifə əlavə edərək tarixi Zəfər qazandı.

YAP Kürdəmir rayon təşkilatının fəaliyyətindən danışan A.Cəbrayılov deyib ki, rayon təşkilatı üzrə ərazi partiya təşkilatlarının sayı 89, üzvlərin sayı isə 10189 nəfərdir.

YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik Əhliman Əmiraslanov çıxışında vurğulayıb ki, Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurət, o dövrdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. O zaman müstəqilliyinin itirilməsi təhlükəsi ilə üzləşən Azərbaycanın ümidi müdrik dövlət xadimi, zəngin dövlətçilik təcrübəsinə malik olan, öz fəaliyyətində xalqın ali mənafeyini, dövlətin milli maraqlarını rəhbər tutan görkəmli siyasi xadim Heydər Əliyevə idi. Ulu Öndərin hakimiyyətə qayıdışı ilə ölkədə vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı.

YAP İdarə Heyətinin üzvü, partiyanın Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan YAP-ın 30 illik tarixi zəngin və şərəfli inkişaf yoludur. Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun milli maraqların ifadəçisi olmasıdır. Tarixi şəxsiyyət olan ulu öndər Heydər Əliyevin yaratdığı və bu gün onun əbədiyaşar ideyaları əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyasının həyata keçirdiyi düzgün və məqsədyönlü siyasət ölkəmizin inkişafını şərtləndirən əsas amillərdəndir.

Kürdəmir rayon İcra Hakimiyyətinin başçısı Elxan İbrahimov deyib ki, bu gün sürətlə inkişaf edən müstəqil dövlətimizi uğurlu inkişafa aparan bu yolda hər bir Azərbaycan vətəndaşı Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin siyasi kursunu dəstəkləyir və böyük əzmlə dövlətin, xalqın, vətənin mənafeyi naminə səy göstərir. Yeni Azərbaycan Partiyasının arxada qoyduğu möhtəşəm 30 ilə nəzər yetirsək, qürur hissi ilə vurğulaya bilərik ki, YAP qüdrətli siyasi təşkilat olmaqla Azərbaycanın dövlətçilik maraqlarının qətiyyətli və etibarlı müdafiəçisidir.

Tədbirdə, həmçinin partiya üzvü, partiya üzvləri - şəhid Cəmil Həşimlinin anası Simuzər Bağıyeva və Vətən müharibəsi qazisi Elnur Cəfərov, partiyanın veteran üzvü, rayon təşkilatının ilk sədri olmuş Rafiq Mehdiyev Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, partiyanın ümummilli lider Heydər Əliyev ideyalarına əsaslanaraq ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etməsindən, dövlətçiliyimizin möhkəmlənməsinə və Azərbaycanın dinamik inkişafına öz töhfələrini verməsindən, qazanılan parlaq qələbədən ətraflı bəhs ediblər.

Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar, eləcə də partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi təqdim edilib.

*Ardı Səh. 6*

## Yeni Azərbaycan Partiyası - 30

# YAP-ın 30 illik tarixi zəngin və şərəfli inkişaf yoludur!

### Bölgələrdə Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 30 illiyi münasibətilə geniş tədbirlər keçirilir

Əvvəli Səh. 5

### Ağstafa

Oktyabrın 25-də Ağstafa rayonunda Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüblər. Sonra Ağstafa rayon "Şəhid" Memorial





abidə kompleksini ziyarət olunub, abidə kompleksinin önünə gül dəstələri düzülüb.

Tədbir Heydər Əliyev Mərkəzində davam edib. Əvvəlcə Heydər Əliyev Mərkəzinə ekskursiya olub. Ulu Öndərin zəngin və mənalı ömür yolunu əks etdirən şəkillərə baxılıb.

Azərbaycanın Dövlət Himni səsləndirilib, müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin və müstəqilliyimizin, ərazi bütövlüyümüzün təmin olunması yolunda canlarından keçən Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Yeni Azərbaycan Partiyasının 30 illik fəaliyyətini özündə əks etdirən film nümayiş olunub.

Tədbirdə geniş məruzə ilə çıxış edən YAP Ağstafa rayon təşkilatının sədri Etibar Hacıyev bildirib ki, xalqın partiyası kimi tanınan Yeni Azərbaycan Partiyası bütün istəkləri, arzuları birləşdirir. Yeni Azərbaycan Partiyası artıq 30 ildir ki, respublikamızın ictimai-siyasi həyatında fəal iştirak edir, xalqın sevgisini və dəstəyini qazanır, ölkədə sabitliyin təminatında avanqard rolunu davam etdirir.

Çıxış edən Milli Məclisin deputatı Nizami Cəfərov vurğulayıb ki, Yeni Azərbaycan Partiyasının yaranması Azərbaycanın tarixində çox böyük bir hadisədir. Yeni Azərbaycan Partiyası partiya quruculuğunun mütərəqqi prinsiplərini hər zaman əsas tutub. Partiyanın idealı yeni, müstəqil Azərbaycan yaratmaq olub.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə çıxışında 44 günlük Vətən müharibəsindən bəhs edib. Şəhid ailələrinə göstərilən diqqət və qayğını xüsusilə vurğulayıb. O, Yeni Azərbaycan Partiyasının ən böyük amalının xalqa xidmət etmək olduğunu söyləyib.

Çıxış edən Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov Yeni Azərbaycan Partiyasının zərurətdən yaranmış avanqard qüvvə olduğunu bildirib. O dövrdə baş verən hadisələrdən, partiyanın yaranmasından və hazırda xalqın öz liderinə olan inamından bəhs edib. O, partiyamızın Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf və qələbə yolunda əmin addımlarla irəlilədiyini söyləyib.

Daha sonra çıxış edən 44 günlük Vətən müharibəsinin iştirakçısı, qazi Kamil Hüseynov və partiya fəalı, Zəlimxan kənd tam orta məktəbin direktoru Qalib Cəfərov bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusu düşməni Qarabağda ağır məğlubiyyətə uğratdı. İndi artıq Qarabağda və Şərqi Zəngəzurda geniş quruculuq işləri görülür. Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar, eləcə də partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi təqdim edilib.

### Ağdam

Oktyabrın 25-də Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 30 illiyi münasibətilə partiyanın Ağdam rayon təşkilatı tərəfindən tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları Ağdam rayonu Quzanlı qəsəbəsindəki ulu öndər Heydər Əliyevin abidəsini, Şəhidlərin xatirəsinə ucaldılmış Abidə Kompleksini və Şəhidlər Xiyabanını ziyarət ediblər.

Tədbirdə Dövlət Himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin və ölkəmizin bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

YAP Ağdam rayon təşkilatının sədri Mansur Quliyev "Yeni Azərbaycan Partiyası son 30 illik tariximizin şanlı səhifələrindəndir" mövzusunda məruzə ilə çıxış edib. O qeyd edib ki, ümummilli lider Heydər Əliyevin ideyaları əsasında fəaliyyət göstərən Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyamız böyük nailiyyətlər qazanıb.

Tərbirdə çıxış edən Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov bildirib ki, ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası böyük inkişaf yolu keçib. Onun sözlərinə görə, YAP bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə davamlı uğurlara imza atmaqdadır.

Çıxış edən Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, İqtisad Universitetinin rektoru, iqtisad elmləri doktoru





Ədalət Muradov bildirib ki, Yeni Azərbaycan Partiyası yarandığı gündən siyasi səhnədə dövlətçilik mövqeyindən çıxış edərək xalqın mənafeyini hər şeydən üstün tutduğunu bəyan edib, qısa zaman kəsiyində ümumxalq rəğbətini qazanıb. Azərbaycan xalqı bu gün ulu öndər Heydər Əliyevin qurucusu olduğu müstəqil Azərbaycan dövlətini inkişaf etdirmək, yeni-yeni uğurlar qazanmaq istiqamətində partiyamızın Sədri, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə hərtərəfli dəstək verməkdədir.

Daha sonra tədbirdə çıxış edən Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov bildirib ki, ulu öndər Heydər Əliyevin yaratdığı və bu gün onun ideyaları əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyasının 30 illik tarixi şərəfli inkişaf yoludur.

Tədbirdə, həmçinin Ağdam 2 saylı Texniki Peşə məktəbi üzrə ərazi partiya təşkilatının sədri Xanım Əliyeva, Ağdam Dövlət Sosial İqtisad Kolleci üzrə ərazi partiya təşkilatının sədri, professor Natiq Cavadov, YAP Ağdam rayon təşkilatının veteran üzvü Qədulla Səfərov və Ağdam rayon İcra Hakimiyyəti Aparatında Vətən Müharibəsi Qaziləri və Şəhid Ailələri ilə işin təşkili şöbəsinin müdiri Samir Məmmədov Yeni Azərbaycan Partiyasının bundan sonra da mühüm nailiyyətlərə imza atacağını qeyd ediblər.

Tədbirin sonunda şəhid İsizadə Elvin Azim oğluna verilmiş medal atası Azim Quliyevə təqdim edilib. YAP sıralarına yeni qəbul olunan bir qrup gəncə üzvlük vəsiqələri və rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya fəallarına "Təşəkkürnamə" təqdim edilib.



## Viktor Kipiani:
## "Bu səfərlər regional sülhün, həmçinin ikitərəfli əlaqələrin təməlini daha da möhkəmləndiriləcək"

Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana işgüzar səfəri və səsləndirdiyi mesajlar həm ikitərəfli münasibətlərin möhkəmləndirilməsi baxımından, həm də digər səbəblərdən mühüm əhəmiyyət daşıyır. Bu sözləri AZƏRTAC-a müsahibəsində politoloq, "Geocase" beyin mərkəzinin sədri Viktor Kipiani söyləyib.

O deyib: "Azərbaycan Prezidentinin bu səfəri Cənubi Qafqazda son dövrlərdə baş vermiş hadisələrdən sonra çox vacib və vaxtında edilən bir səfərdir. Düşünürəm ki, bunu ləngitmək hadisələrin gələcək inkişafının trayektoriyasına təsir edə bilərdi".

Onun sözlərinə görə, Prezident İlham Əliyev Tbilisiyə səfərindən öncə müxtəlif təşəbbüslər səsləndirib. Regionda uzunmüddətli sülh və sabitliklə bağlı bu təşəbbüslər Tbilisi tərəfindən çox xoş və isti qarşılanıb, dəstəklənib.

"Düşünürəm ki, Azərbaycan Prezidentinin bu səfəri ölkələr arasında əməkdaşlığın daha da güclənəcəyinə dair çox düzgün mesajdır. Bu, çox təqdir edilir və alqışlanılır. Ümid edirik ki, bu səfərlər vasitəsilə regional sülhün, həmçinin ikitərəfli əlaqələrin təməllərini daha da möhkəmləndiriləcək"- deyə Kipiani vurğulayıb.

Regiondakı yeni reallığın ölkələrin yeni birgə biznes layihələri həyata keçirməsini zəruri etdiyini vurğulayan V.Kipiani deyib: "Bizim artıq müəyyən infrastruktur layihələrimiz var. Eyni zamanda, biz yeni sərhədlərarası biznes layihələri həyata keçirəcəyik. Bu da əlaqələrimizin dinamikasını sürətləndirəcək. Ölkələrimizin birgə həyata keçirdiyi Bakı-Tbilisi-Ceyhan, Cənub Qaz Dəhlizi kimi önəmli layihələr var. Lakin yeni dövr yeni reallığı diktə edir. Ona görə də yeni layihələrin, yeni təşəbbüslərin müzakirəsi regionumuzun qlobal biznes xəritəsindəki mövqeyinin gücləndirilməsi üçün gündəlikdədir"..

# Hüseyn Cavid -140

**”Kəssə hər kim**
**tökülən qan izini,**
**Qurtaran dahi odur**
**yer üzünü”**

Fəlsəfi müdrikliyin və bədii kamilliyin ahəngdar vəhdətini dolğun təcəssüm etdirən Hüseyn Cavid yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixinə işıqlı səhifələr yazıb. O, bütün ədəbi fəaliyyəti boyu həqiqəti, insanpərvərliyi və gözəlliyi tərənnüm edib. Şərq poetik fikri zəminində yüksələn və dünya romantizm ənənələrindən uğurla bəhrələnən filosof-şair Azərbaycan poeziyasında fəlsəfi lirikanın dəyərli nümunələrini meydana gətirib. Azərbaycan xalqının XX əsrdə yetirdiyi ən böyük şəxsiyyətlərdən olan filosof-şair və istedadlı dramaturq Hüseyn Cavid ictimai fikir tarixində böyük rol oynamışdır. Hələ sağlığında öz orijinal sənət yolu ilə milli ədəbi-ictimai fikrin diqqətini yaradıcılığına cəlb etmiş Hüseyn Cavid irsi günahsız yerə repressiya olunduqdan sonra, bir müddət yasaq edilsə də, əsl vətənpərvər ziyalıların xatirindən bir an da çıxmamış, yeri gəldikcə, şifahi şəkildə olsa da, təbliğ edilmişdir. Bütün böyük klassiklər kimi, Hüseyn Cavid də zamanın sınağından alnıaçıq çıxaraq, layiq olduğu bəraəti almışdır.

### “TARİX HƏR ŞEYİ ÖZ YERİNƏ QOYDU”

Xalqımızın bir çox klassik sənətkarı kimi, Hüseyn Cavid irsinin və sənətkar şəxsiyyətinin əsl qiymətini sözün-sənətin böyük bilicisi və hamisi Azərbaycan xalqının böyük Oğlu, Ümummilli Lider Heydər Əliyev vermiş, onun istər cismən, istərsə də mənən vətəninə və xalqına qaytarılmasında müstəsna rol oynamışdır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Hüseyn Cavidin naşinin hələ 1982-ci ildə Uzaq Sibirdən vətəninə gətirilməsi və Naxçıvanda məzarı üzərində möhtəşəm məqbərənin ucaldılması milli ruhun dirçəlişi və azərbaycançılıq məfkurəsinin təntənəsi baxımından, müstəsna əhəmiyyətə malik misilsiz bir hadisədir. Ulu Öndər Heydər Əliyev deyirdi: ”Tarix hər şeyi öz yerinə qoydu. Hüseyn Cavidin cənazəsi də Sibirdən öz vətəninə gətirildi, onun adı da yüksəldi”.



Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Hüseyn Cavidin cənazəsinin qalıqlarının Azərbaycana - şairin doğma yurdu Naxçıvana gətirilməsi Sovet məkanında yaşadığımız illərdə, həqiqətən də, böyük maraq doğurmuşdu. Milli mədəniyyətimizin hərtərəfli inkişafına, yüksəlişinə daim təkan verən Ulu Öndər Heydər Əliyev hələ Azərbaycan KP MK-nın Birinci Katibi vəzifəsində çalışarkən, 1981-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında qərar qəbul etmiş, bu qərardan sonra - 1982-ci il oktyabrın 3-də Naxçıvana səfəri zamanı Cavidin cənazəsinin qalıqlarının uzaq Sibirdən tapılıb gətirilməsinə xeyir-dua vermişdir. 1982-ci il oktyabrın 12-də Naxçıvan Vilayət Partiya Komitəsi Hüseyn Cavidin məzarının tapılması, cənazəsinin qalıqlarının Azərbaycana gətirilməsi ilə bağlı tarixi bir qərar qəbul etmiş və bu qərarın icrası rusiyalı həmkarlarının köməyindən istifadə edərək şairin məşəqqətli ömür yolunu tədqiq edərək, Cavid haqqında uzaq Sibirdə saxlanılan sənədlərin əldə olunmasına nail olan Naxçıvan Vilayət Partiya Komitəsinin katibi Həmid Cəfərova həvalə olunmuşdu.Cavidin cənazəsinin qalıqları onilliklərdən sonra uzaq və buzlu Sibirin əlçatmaz yerlərindən doğma yurdu Naxçıvana gətirildi.

### AZƏRBAYCAN ƏDƏBİYYATINDA İLK MƏNZUM FACİƏ VƏ DRAMLARININ MÜƏLLİFİ

Böyük dramaturqun doğum günündə onun keçdiyi ömür yolunu bir daha vərəqləyirik. Böyük dramaturq Hüseyn Cavid 1882-ci ildə oktyabrın 24-də Naxçıvanda ruhani ailəsində dünyaya göz açıb. İbtidai təhsilini Naxçıvanda molla məktəbində, orta təhsilini isə M.T.Sidqinin ”Məktəbi-tərbiyə” adlı yeni üsullu məktəbində almışdır. 1899-1903-cü illərdə Cənubi Azərbaycanda olmuş, Təbrizin ”Talibiyyə” mədrəsəsində təhsilini davam etdirmişdir. İstanbul Universitetinin ədəbiyyat şöbəsini bitirmiş, Naxçıvanda, sonra isə Gəncə və Tiflisdə, 1915-ci ildən isə Bakıda müəllimlik etmişdir. Hüseyn Cavid klassik Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən sənətkarlardandır. O, XX əsr Azərbaycan mütərəqqi romantizminin banilərindən biri olmuşdur.Hüseyn Cavid sənəti janr və forma cəhətdən zəngindir. O, lirik şeirlərin, lirik-epik, epik poemaların, Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifidir. ”Keçmiş günlər” adlı ilk şeir kitabı 1913-cü ildə çap olunmuşdur. Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və tarixi faciələri, ailə-məişət dramları üslub və yazı ədası forma yeniliyi baxımından, Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratdığı kimi, milli teatr mədəniyyətinin inkişafına da qüvvətli təsir göstərmiş, ”Cavid teatrı” kimi səciyyələndirilmişdir. Dramaturgiyasında dövrün ümumbəşəri, böyük ictimai-siyasi və mədəni əhəmiyyətə malik problemləri əksini tapmışdır.

### “İYİRMİNCİ ƏSRİN MƏDƏNİ VƏHŞİLƏRİ”

Azərbaycan ədəbiyyatında ilk mənzum faciə olan ”Şeyx Sənan” (1914) əsərində xalqları bir-birinə qovuşdurmaq üçün ümumbəşəri din ideyasını ortaya atmışdır. Hüseyn Cavid bu dövrdə tədriclə ”haqq verilmir, alınır” ideyasına gəlib çıxmışdır. Yaradıcılığında mühüm yer tutan ”İblis” (1918) mənzum faciəsində dövrün bütün mürtəce qüvvələri - ”insan insana qurddur” fəlsəfəsinin tərəfdarları, ”iyirminci əsrin mədəni vəhşiləri” olan dairələri İblis surətində ümumiləşdirilmiş və işğalçı müharibələrə lənət yağdırılmışdır.1926-cı ildə müalicə üçün Almaniyaya gedən və 7 ay Berlində yaşayan Hüseyn Cavid oradan ziyalıların mənəvi iztirablarını əks etdirən bir sıra siyasi-lirik və lirik-epik şeirlərlə qayıdır. Ötən əsrin 20-30-cu illərində Hüseyn Cavid bir sıra tarixi dramlar yazmışdır. ”Peyğəmbər” (1922) və ”Topal Teymur” (1925) əsərlərindən sonra yazdığı ”Səyavuş” (1933), ”Xəyyam” (1935) tarixi dramları Hüseyn Cavidin tarixə və tarixi şəxsiyyətlərə baxışında ciddi dönüş oldu.Böyük sənətkarın yaradıcılıq irsinə və şəxsiyyətinə hər zaman diqqət olmuşdur. Ümummilli Lider Heydər Əliyevin ”Hüseyn Cavidin 120 illik yubileyi haqqında” imzaladığı Sərəncamdan bir gün sonra 2002-ci il 24 oktyabrda, yeni Hüseyn Cavidin 120 illik yubileyi günündə şairin Ev Muzeyi açıldı. Bu gün Azərbaycan Prezidenti Cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirir. Azərbaycan Prezidentinin Sərəncamına əsasən, böyük sənətkarın əsərləri latın qrafikasında çap olunub. Hüseyn Cavidin 130 və 135 illik yubileylərinin keçirilməsi haqqında dövlət başçısı sərəncamlar imzalamışdır.Görülən işlərin davamı olaraq, Cənab Prezident 24 sentyabr 2022-ci il tarixində Hüseyn Cavidin 140 illiyinin qeyd edilməsi ilə bağlı Sərəncam imzalayıb. Bu sənəd Cavid yaradıcılığına ayrılan daha bir diqqətdir.

### BƏNİ ÖLDÜRSƏLƏR DƏ BƏN YAŞARIM

Hüseyn Cavid son dərəcə dərin məzmunlu yaradıcılığı ilə çoxəsrlik Azərbaycan ədəbiyyatı xəzinəsinə tarixi-mədəni dəyərlər bəxş etmiş qüdrətli söz sənətkarıdır. O, Şərqin zəngin fəlsəfi-poetik irsi zəminində yüksələrək və dünya romantizm ənənələrindən uğurla bəhrələnərək, Azərbaycan xalqının ədəbi-bədii fikir salnaməsinə parlaq səhifələr yazmışdır. Mütəfəkkir sənətkarın neçə-neçə oxucu və tamaşaçı nəslinin estetik zövqünü müəyyənləşdirən əsərləri bu gün də öz monumentallığını və yüksək təsir gücünü qorumaqdadır. Böyük dramaturq Hüseyn Cavid ”Şeyx Sənan” faciəsində yaratdığı dramatik münaqişə vasitəsilə insanın həqiqət axtarışında olaraq, onun hisslərinin aliliyini yüksəltmək səyləri ilə ucala biləcəyinin mümkünlüyünü isbat etmişdir. Hüseyn Cavid də, məhz belə ali dəyərlərin axtarışında olaraq, əbdiliyini qazanmışdır. Əsərdə qəhrəmanı Sənanın dilindən deyilmiş aşağıdakı misralarda sanki dramaturqun həyatı nəzmə çəkilmişdir:

Bəni öldürsələr də bən yaşarım,
Tərk edib xəlqi xaliqə qoşarım.

***Zümrüd BAYRAMOVA***

---

# “Bu birliyi sarsıdacaq heç bir qüvvə ola bilməz”

**“Məlum olduğu kimi, oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi baş tutdu. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə yanaşı, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak edib. Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın ən mühüm nəqliyyat qovşağının çevrilməsini şərtləndirən əsas amillərdən biridir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir”. Bu sözləri SİA-ya açıqlamasında hərbi-siyasi ekspert Telman Qasımov deyib.**

Onun sözlərinə görə, Füzuli hava limanından sonra Zəngilan hava limanı olduqca strateji əhəmiyyət kəsb edən bir hava limanlarından biridir: ”Zəngilan Beynəlxalq Hava Limanı demək olar ki, işğaldan azad olunan ərazilərdə, xüsusən də İranla sərhəd olan Arazqırağı bölgədə olduğu üçün gələcəkdə Azərbaycanı hər hansısa bir təhdidlərdən, hərbi müdaxilələrdən qorumaq üçün yenə də olduqca hərbi xarakterlik daşıyan hava limanlarından biri sayıla bilər.

Təbii ki, cənab Ərdoğanın həmin bu tədbirdə iştirak etməsi dünyaya bir mesaj oldu ki, həqiqətən də Azərbaycanla Türkiyə iki dövlət, bir millətdirlər və onlar bütövlüklə



regionumuzda baş verən istər dəyişikliklərdə, istərsə də infrastrukturların yenidənqurma prosesində bir yerdədirlər.

Türkiyə Azərbaycan üçün arxa və kömək olan bir dövlətdir. Türkiyə Prezidenti ilə cənab Prezident İlham Əliyevin birgə olması xüsusən də burada dünyaya və həmin o xoşniyyətli olmayan qonşu ölkələrə verdiyi mesaj çox böyük əhəmiyyət kəsb edir”.

Telman Qasımov sözlərinə belə davam edib: ”Bu gün dünyanın bir çox ölkələrində problem yaşanır. Cənab Prezident bunu açıqladı və ölkələr idarəolunmaz vəziyyətə düşüblər, iqtisadi çətinliklər, sıxıntılar baş alıb gedir. Türkiyə və Azərbaycan isə bütün bu çətinliklərin fonunda işğaldan azad olunmuş ərazilərimizdə böyük infrastruktur dəyişikliklər və maliyyə xərcləməklə böyük işlər görüblər. Həqiqətən də bu dünyaya bir mesaj idi ki, Azərbaycan və Türkiyə qardaş ölkələrdir. Onlar bir və möhkəmdirlər. Bu birliyi sarsıdacaq heç bir qüvvə ola bilməz. Çünki artıq region demək olar ki, qardaş Türkiyənin nəzarətindədir. Xüsusən də bizim bölgədə, regionda hansısa bir dəyişiklik baş verəcəksə də, hansısa bir vəziyyət dəyişəcəksə də burada mütləq şəkildə Türkiyənin söz sahibliyi vacibdir.

Hər iki Prezidentin çıxışında, hər bir kəlməsinin arxasında böyük məna dayanır. Bu baxımdan mən düşünürəm ki, qarşıda həqiqətən də bizi istər ağır, istər çətin, istər üzü ağ, alnıaçıq və fəxredici, qürurduyucu günlər gözləyir. Təbii ki, bu ağır günlər həm də İran-Azərbaycan sərhədində baş verən bu xoşagəlməz təlimlərlə bağlıdır.

Düşmən Azərbaycanın uğurlarını həzm edə bilmir. Bu baxımdan Azərbaycana qarşı xoşniyyətli olmayanlar daim çalışacaqlar ki, başımızı qatsınlar və bizim üçün böyük bir problem yaratsınlar. Mən düşünürəm ki, biz bunun da öhdəsindən gələ biləcəyik. Çünki, 44 günlük müharibə kimi ağır bir vəziyyətdən üzüağ, alnıaçıq çıxdıqsa, bütün bu xırda-para düşmən tərəfindən yaradılmış məsələlərdəndə üzüağ çıxacağıq”.

***Ayşən Vəli***

ARAŞDIRMA

# Çox işləmək, yoxsa ağıllı işləmək?

**İnsan həyatını davam etdirmək və müxtəlif ehtiyaclarını ödəmək üçün hansısa şəkildə işləməlidir. Özünüzü daha yüksək səviyyələrə daşımaq və uğur qazanmaq üçün işləməkdən əlavə çox çalışmaq lazım olduğunu düşünürsünüzsə, qəti şəkildə yanılırsınız. Çox işləmək yox, ağıllı işləmək faydalıdır.**

Uzun saat aralığında çalışmaq və nəticə əldə etməmək, daha da çox yorulmaq əvəzinə, vaxtı düzgün idarə etmək lazımdır. Buna ağıllı işləmək deyilir.

Uğur hekayələri sahibkarlıq dünyasında çox məşhurdur. Bu hekayələr sahibkarları ruhlandırmaq və motivasiyasını artırmaq üçün vacib olsa da, çox vaxt aysberqin görünən hissəsini qeyd etmək onlara mənfi təsir göstərə bilər. Çünki bəzən bu hekayələr uğurlu sahibkarların yaşadıqları çətinlikləri və ya haradan başladığını təsvir etmək üçün kifayət etmir.

Sahibkarların unutmaması lazım olan əsas şey uğurun əslində başlanğıcda və ya başqa sözlə işə başlamada gizləndiyidir.

**Gəlin bir sıra nümunələrə nəzər salaq:**

"Twitter"in 2006-cı ildə bərbad idi. Ancaq platforma bu vəziyyətdə belə fərq yarada bildi. Çünki Jack Dorsey və tərəfdaşları artıq layihəni beyinlərində reallaşdırmışdılar. Bu gün "Twitter"in 328 milyonda çox aktiv istifadəçisi var və çox uğurlu bir platformadır.

Heç universitet məzunu olmayan iki gəncin ortaqlığı ilə kiçik bir qarajdan başlayan "Apple" hekayəsini çoxumuz bilirik. Bu gün "Apple" dünyanın ikinci ən dəyərli şirkəti və texnologiyanı formalaşdıran ən əhəmiyyətli şirkətlərdən biridir. Jobs və Wozniak özlərinin "Apple" hekayəsində uğur qazanmaq üçün böyük büdcəyə və ya dəbdəbəli ofislərə ehtiyac olmadığını sübut etdilər.

Harvardda yataqxanada qurulan "Facebook" bu gün dünyanın ən böyük sosial media şəbəkəsidir. Çox kiçik bir büdcə ilə qurulan, lakin uğurlu nümunə olan hekayəsi, başlanğıcların böyük imkanlar tələb etmədiyini sübut edir.

Müəyyən edilmiş vaxtda məqsədə çatmağa uğur deyilir. Müvəffəqiyyət təkcə iş həyatında keçərli bir anlayış deyil. İnsanın sənət fəaliyyətində və ya sevgi münasibətlərində də uğur qazanması mümkündür. Əhəmiyyətli olan odur ki, fərd nə istədiyini bilsin və onları həyata keçirmək üçün kifayət qədər enerji, güc və iman sahibi olsun.



**Uğurlu olmaq üçün nə etməliyik və uğurun sirri nədir?**

Hər kəs uğur qazanmaq və təqdir edilmək istəyir. Bəziləri üçün uğur zəngin olmağa bərabərdir, bir çoxları üçün isə əsl uğur karyeradır. Uğurun tərifi hər kəs üçün fərqli olsa da, arzularını həyata keçirmək və nəyəsə tam nail olmaq üçün keçməli olduğu yollar demək olar ki, eynidir.

**Uğurun sirrini üç sözlə ümumiləşdirmək olar:**

1. İnanc
2. Motivasiya
3. Nizam-intizam

Bu üçündən birinin belə olmaması uğura gedən yolun bağlanmasına və zəhmətin boşa getməsinə səbəb olur. Xülasə, insan özünə və bacaracağına inanmalı, özünü tez-tez motivasiya etməli, nizam-intizamla işləməlidir.

**Uğur üçün 10 məsləhət:**

**1. Plan hazırlamaq**

Bir yola çıxmazdan əvvəl insan özündən soruşmalıdır: "Mən tam olaraq nə etmək istəyirəm?" "Karyera hədəflərim nədir?" "5-10 ildən sonra özümü harada görürəm?" Planlı olmaq uğura aparan yolun ilk addımıdır. Plansız hərəkət etmək insanın fürsətləri yaxşı dəyərləndirməməsinə və hədəflərini çox gec həyata keçirməsinə səbəb olur.

**2. Cəsarətli olmaq**

Uğurlu olmaq istəyən fərdlər lazım gəldikdə ciddi qərarlar verməyi bilməlidir. Bunun üçün hər kəsin getdiyi yolla getmək əvəzinə, ilkləri sınayacaq qədər cəsarətli olmaq lazımdır.

**3. Risk etmək**

Lazım olanda risk almağı bilmək də uğurun meyarlarındandır. Xüsusilə iş həyatında risk faktorlarını yaxşı qiymətləndirmək, alına biləcək riskləri təyin etmək və buna uyğun hərəkətlər etmək sizi zəngin və uğurlu bir iş adamı edə bilər.

**4. Səbirli olmaq**

Necə deyərlər, "Tələsən təndirə düşər". Bunun üçün səbirli olmaq lazımdır.

**5. Mübarizə aparmaq**

Nə olursa-olsun, insan qarşılaşdığı maneələrdə ruhdan düşməməli və onları aşaraq yeni hədəflərinə çatmağa çalışmalıdır. Bunun üçün mübariz ruhun olması lazımdır.

**6. Güzəşt etməmək**

Müvəffəqiyyətli olmaq istəyən fərdlər heç vaxt bildikləri həqiqətlərdən əl çəkməməli və başqalarının fikrinə uyğun hərəkət etməməlidirlər.

**7. Müsbət düşünmək**

Həyatda istədiyimizi əldə etmək həmişə mümkün olmur, amma yenə də nikbin olub gələcəyə pozitiv baxmalıyıq. Məqsədlərimizə yalnız bu yolla nail ola və uğur qazana bilərik.

**8. Qərarlı olmaq**

Xüsusilə iş həyatında tələsik qərarlar verməməliyik, amma qərar verdikdən sonra nə olursa olsun onun yanında olmalıyıq. Qərarsızlıq insanın vaxt itirməsinə səbəb olur. Vaxt itkisi isə uğursuzluğun ən böyük səbəblərindən biridir.

**9. İntizamlı olmaq**

Bizi hədəflərimizə çatmağa aparan yolda yorulmadan, amansızcasına çalışmalı, nizam-intizamlı olmalıyıq. İntizamlı olmaq üçün vaxtdan düzgün istifadə etmək böyük əhəmiyyət kəsb edir.

**10. Yeni fikirlərə açıq olmaq**

"Ağıl ağıldan üstündür." Biz həmişə yeni ideyalara açıq olmalıyıq. Dar düşüncə insanın həm uğursuz, həm də bədbəxt olmasına səbəb olur.

**Ağıllı işləmək üçün nə etmək lazımdır?**

- Lazımsız detallarla məşğul olmayın, prioritetlərinizi təyin edin.
- Hər işi tək görməyə çalışmayın. Lazım gələrsə kömək alın. Bu arada işiniz zamanı fasilə verməyi unutmayın.
- Hər məsuliyyəti üzərinizə götürməyin.
- Qeydlər aparın.
- Bu günün işini sabaha qoymayın.

Çox çalışmaq uğurlu olmaq demək deyil. Uzun müddət səmərəsiz işləməkdənsə, az, amma məhsuldar işləmək daha yaxşıdır.

Uğurun bir hissəsi şansdan asılıdırsa, təbii ki, qalanı da səmərəli işləməkdən keçir. Çox işləmək və məhsuldar olmaq arasında ciddi fərq var. Məhsuldar olmaq vaxtın və enerjinin düzgün idarə edilməsidir. Biz az enerji sərf etməklə daha faydalı öyrənməliyik. Bunun üçün yeni nəsə etməyə ehtiyac yoxdur. Etdiyimiz bəzi işlərdən imtina etmək kifayətdir.

**Daha məhsuldar olmaq üçün bunları etməliyik:**

**1.** Yüksək məhsuldarlığa nail olmaq üçün özümüzü kifayət qədər yatmağımız və normal templə qədərində işləməyimiz lazımdır.

**2.** Çox işləməyin, ağıllı şəkildə işləyin. Yəni, az, amma saz olsun.

**3.** Hər məsuliyyəti öz üzərinizə götürməyin. Ehtiyacınız olanda kömək istəməyi bacarın.

**4.** Mükəmməl olmaq fikrindən əl çəkin. Mükəmməl insanlar bir işə lazım olduğundan daha çox vaxt sərf edirlər. Onlar xırda bir detala çox diqqət yetirərək, böyük mənzərəni əldən verirlər.

**5.** İşə arada fasilə verin. Düşünmək üçün özümüzə vaxt ayırmağımız vacibdir.

***Ayşən Vəli***

“Dünən azad edilmiş yaşayış məntəqələrinin siyahısını doğma xalqıma çatdırıram. Zəngilan rayonunda azad edilmiş kəndlər: Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd. Cəbrayıl rayonunun azad edilmiş kəndləri: Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər. Qubadlı rayonunun dünən azad edilmiş yaşayış məntəqələri: Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan və Qubadlı şəhəri! Dünən mən artıq bu barədə Azərbaycan xalqına bu sevincli xəbəri verdim. Bir daha bu şad xəbəri bütün Azərbaycan xalqına çatdırmaq istəyirəm. Zəngilan, Cəbrayıl, Qubadlı rayonunun sakinlərinə, bu kəndlərdə yaşamış sakinlərə xoş xəbər çatdırmaq mənim üçün böyük şərəfdir”. Bu fikirləri 2020-ci ilin oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində bildirmişdir. Artıq Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatı nəticəsində işğalda olan bir sıra şəhər, qəsəbə və kəndlərimiz azad edilmişdir. Biz işğal tariximizdən deyil, artıq qələbə ilə zəngin olan Azərbaycan tarixindən yazırdıq. Yaxın tariximizdə vətən torpağının 20 faizi erməni işğalçılarının təcavüzkar siyasəti nəticəsində işğal altında idisə, artıq bu torpağın müəyyən hissəsi işğalçılardan azad olunmuşdu. Azərbaycan ordusunun əzmi, əsgər adını şərəflə daşıyan oğullarımızın ermənilərə vuşmuşdur. Ərazisi 802 kv.km olan Qubadlının 94 yaşayış məntəqəsi, o cümlədən, 1 şəhər və 93 kəndi var. 31 avqust 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdi. İşğal ərəfəsində isə əhali 30 minə qədər olub. İşğala qədər Qubadlının iqtisadiyyatının əsasını taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük təşkil edib. 2 üzümün ilkin emalı zavodu, 1 yağ-pendir zavodu, 1 asfalt zavodu, 1 inkubator-quşçuluq fabriki, 1 balıqyetişdirmə vətəgəsi, 1 daş karxanası, 1 mərmər sexi, Azərbaycan ”Neftqazavtomat” təcrübə zavodunun filialı və s. fəaliyyət göstərib. Ümumiyyətlə, Qubadlı rayonunda 62 idarə və müəssisə olub. Qubadlı rayonunda 61 ümumtəhsil məktəbi, o cümlədən, 33 orta, 16 səkkizillik, 12 ibtidai məktəb fəaliyyət göstərib. Qubadlıda 180-ə qədər mədəni-maarif müəssisəsi olub. 84 kitabxana, 12 mədəniyyət evi və 44 klub, 7 avtoklub əhaliyə xidmət edib. Rayonda 2 uşaq-musiqi məktəbi də fəaliyyət göstərib. Ümumilikdə, işğal nəticəsində rayonda olan 6988 yaşayış evi, 1080 kənd təsərrüfatı obyekti, 32 rabitə, 86 səhiyyə, 180 mədəniyyət, 6 sənaye müəssisələri, 650 km avtomobil yolları, 9 körpü, 2 su anbarı, 150 kilometr magistral su xətləri, 4830 km elektrik xətləri, 165 kilometr magistral qaz boru xətti, 146 idarə, müəssisə binaları, 18 dəyirman, 4 su nasos stansiyası, 120 ədəd elektrik yarımstansiyası və transformator dağıdılıb, 13 365 hektar meşə sahəsi işğal altında qalmışdı.

Ermənilər 5 mindən çox nadir eksponat saxlanılan Qubadlı tarix-diyarşünaslıq muzeyini də talan ediblər. IV əsrə aid ”Gavur dərəsi”ndəki ibadətgah, V əsrə aid ”Qalalı” və ”Göyqala” abidələri, 14-cü əsrdə tikilmiş ”Dəmirçilər” Türbəsi, Hacı Bədəl körpüsü, Laləzar körpüsü, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qarağaclı, Xocamsaxlı kəndlərindəki digər tarixi abidələr işğal olunub. Erməni təcavüzü zamanı Qubadlı 238 şəhid verib, 146 nəfər əlil olub. Həmişə olduğu kimi ermənilər təxribatlar törətmək, iftira xarakterli məlumatlar yaymaq işini davam etdirirdi. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistan döyüş meydanında uduzduğunu aydın dərk edirdi. Beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını ortaya qoymuş olur. Ermənistan döyüş meydanında artıq Azərbaycanın qarşısında diz çökmüşdü.

”Atəşkəsdən istifadə edib öz qüvvələrini yenə də səfərbər etmək istəyir, yenə də silahlanmaq istəyir və bizə qarşı yeni işğalçılıq siyasəti aparmaq istəyir, - deyə Prezident bildirib: ”Belə məlumatlar var və əfsuslar olsun ki, son bir ay ərzində Ermənistana kütləvi surətdə silahlar göndərilir, müxtəlif növ silahlar. Bütün siyahılar bizdə var. Onların bəziləri bizim mətbuatda da dərc edilib. Bütün siyahı var, nə vaxt, hansı təyyarə gəlib, haraya gəlib, nəyi gətirib, necə boşaldıb, haraya göndərilib? Yaxşı, atəşkəsi istəyən niyə silah göndərir Ermənistana? Axı, Ermənistan diz çöküb, artıq onun başından elə vurmuşuq ki, ayıla bilmir. Ermənistanın baş naziri - Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edən, özünü böyük sərkərdə kimi aparan indi yıxılıbdır onun-bunun ayağının altına kömək istəyir, imdad diləyir, özünü alçaldır, xalqını alçaldır. Yaxşı, silah verməyin qurtaraq da. Verməyin. Bizə kim verir? Heç kim vermir. Verməyin. İstəyirsinizsə qurtarsın, silah verməyin. İki gündən sonra gələcək yalvara-yalvara. Bir tərəfdən atəşkəs deyilir, digər tərəfdən onlara silah göndərilir. Bu, nə məsələdir? Biz buna səssizmi qalacağıq?”

## ”BU MƏSƏLƏ ÖZ HƏLLİNİ TAPMALIDIR, YA HƏRB YOLU İLƏ, YA SÜLH YOLU İLƏ”

Bildiyimiz kimi, 2020-ci ilin oktyabr ayının 10-da birinci dəfə atəşkəs qüvvəyə mindi. Humanitar xarakter daşıyan aatşkəsə həlak olanların cəsədlərinin, girovların, əsirlərin dəyişdirilməsi üçün Azərbaycan razılıq vermişdi. Ermənistan bir gün keçməmiş bu atəşkəsi kobudcasına pozaraq gecə saatlarında Gəncəni bombaladı. ”Ondan sonra oktyabrın 17 - də yeni atəşkəs elan olundu. Yenə də iki dəqiqədən sonra Ermənistan bunu pozdu. İndi bu gün səhər saat 8 - dən yeni bir təklif verildi. Ancaq səhər 9-da artıq mən maraqlandım, bir neçə dəqiqə keçmiş atəşkəs Ermənistan tərəfindən pozuldu, Tərtər rayonuna yenə də atəş açıldı. Ancaq mən yenə də göstəriş vermişəm, hələ ki, Azərbaycan Ordusu özünü təmkinlə aparsın, təxribata uymasın. Mənim mövqeyim xalqıma bəllidir. Bu məsələ öz həllini tapmalıdır, ya hərb yolu ilə, ya sülh yolu ilə.Mən təklif etmişəm ki, əgər istəyirsinizsə, sülh yolu ilə həll olunsun, yaxşı, biz dayandıraq. Ancaq dərhal bizə deyilməlidir ki, Ermənistan bizim torpaqlarımızdan çıxır” - deyə Prezident müraciətində xalqa bildirmişdir.

# Zəfərə hər gün bir addım



Prezident İlham Əliyev: "Ermənistan diz çöküb, artıq onun başından elə vurmuşuq ki, ayıla bilmir"

verdiyi dərs bu torpaqların təzliklə qaytarılmasından soraq verirdi.

Azərbaycan əsgəri mərdi-mərdanə düşmənlə üz-üzə idi. Ona gücünü, ərənliyini göstərirdi. Əlbəttə ki, müharibə qanqadadır. Ölümdür, itkidir. Buna baxmayaraq, Azərbaycan anası öz oğullarını ləyaqətlə müharibəyə yola salırdı. Bütün xalq Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşmişdi. Bir ay ərizində Ermənistanın məhv edilmiş və hərbi qənimət götürülmüş texnikası açıq-aydın döyüş meydanında Ermənistanın məğlubiyyətinin göstəricisi idi. ”252 tank məhv edilib, 53 tank qənimət kimi götürülüb. Toplam 305 tankdan Ermənistan məhrum edilib. Amma hələ tankları var. Görün nə qədər tank olub onlarda. Piyadaların döyüş maşını - 50-si məhv edilib, 29-u qənimət kimi götürülüb - cəmi 79 ədəd. Müxtəlif çaplı toplar - 251-i məhv edilib, 24-ü qənimət kimi götürülüb, cəmi 275. Minaatan - 61-i məhv edilib, 45-i qənimət kimi götürülüb, toplam 106. Tank əleyhinə vasitə - 53-ü məhv edilib. 82 ”Qrad” qurğusu məhv edilib. 2 ”Uraqan” Yaylım Atəşli Raket Sistemi, 1 ”TOS” məhv edilib. Zenit-raket kompleksləri - 4 ”TOR”, 40-a yaxın ”OSA”, 4 ”KUB”, 1 ”KRUQ”, 2 ”S-125” qurğusu məhv edilib. ”S-300” ən bahalı qurğulardan biridir, 6 ”S-300” atıcı qurğusu məhv edilib. Bir aşkaretmə stansiyası, bir lokator. Qiyməti bəllidir. Hər kəs hesablaya bilər. Əməliyyat taktiki raket kompleksləri - Elbrus, ikisi məhv edilib, ”Toçka-Ulu Öndər” biri məhv edilib. Yük avtomobilləri - 231 yük avtomobili məhv edilib, onlardan 20-si sursatı ilə. 173 yük avtomobili hərbi qənimət kimi götürülüb. Biz düşməni toplam 404 yük avtomobilindən məhrum etmişik” - deyə Cənab Prezident xalqa müraciətində diqqətə çatdırmışdır.

## ƏZƏLİ TORPAQLARIMIZA HƏR GÜN SANCILAN BAYRAQLARIMIZ BİZİ DAHA DA RUHLANDIRDI, QƏLƏBƏDƏN-QƏLƏBƏYƏ APARDI

Hər gün Azərbaycan torpaqlarına sancılan bayraqlarımız bizi daha da ruhlandırırdı. Artıq biz bir sıra işğaldan azad olunan torpaqlarımız kimi Qubadlı şəhəri də azadlığına qovuşmuşdur.

İkinci Qarabağ müharibəsi ərzində Ermənistan Silahlı Qüvvələri və Qondarma Dağlıq Qarabağ Müdafiə Ordusu tərəfindən Azərbaycanın Tərtər rayonundakı şəhər, qəsəbə və kəndləri artilleriya, raket və kasset bombalı silahlarla bombardman edilirdi. Bölgənin bombardmanı müharibənin ikinci günündə, 28 sentyabrda, erməni qüvvələri rayonun inzibati mərkəzi olan Tərtər şəhərini və Birinci Qarabağ müharibəsində qaçqın düşən azərbaycanlılar üçün inşa edilən Şıxarxı atəşə tutduqda başlayır. Bombardman geniş dağıntılara və çox sayda mülki ölümə səbəb olur. Minlərlə insan Tərtər şəhərini bir xəyal şəhərciyinə çevirərək, qaçqın olur və Bərdə kimi qonşu şəhərlərə köç edir. Bu axınlarda erməni qüvvələri tərəfindən hədəf alınır. Rəsmi məlumata əsasən, Azərbaycan hakimiyyəti, erməni qüvvələrinin 29 oktyabr tarixinə qədər Tərtər rayonu ərazisinə 15.500 mərmi atılıb, Rəsmi Azərbaycan rəqəmləri göstərir ki, bombalar zamanı məktəblər, xəstəxanalar və dövlət binaları da daxil olmaqla mindən çox mülki obyekt ya ziyan görmüş, ya da məhv edilmişdir. Human Rights Watch erməni qüvvələri tərəfindən uşaq bağçaları və xəstəxanalar kimi dövlət və mülki obyektlərə yönəlmiş bir çox hədəf hücumlarını təsdiqləyir, üstəlik erməni hərbi qüvvələrinin Azərbaycan ərazilərinə qanunsuz olaraq qadağan olunmuş silahlardan hücumlarının müharibə cinayətləri olduğunu da bildirir. Şəhəri davamlı bombardman etmək Azərbaycan hakimiyyətini Tərtəri Azərbaycanın Stalinqradı kimi etiketləməyə sövq edir və Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanı Tərtəri sonrakı Ağdama çevirməyə çalışmaqda günahlandırır. Tərtər şəhərinin, habelə rayondakı qəsəbə və kəndlərinin bombardmanı yalnız 10 noyabrda Ermənistanın Dağlıq Qarabağ atəşkəs bəyanatını imzalamasından sonra dayandırılır. Beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını ortaya qoymuş olur. Təbii ki, bu və ya digər amillər Azərbaycanı haqq savaşından çəkindirmədi və Azərbaycan Ordusu öz torpaqlarında müharibəsini davam etdirərək, Zəfər tarixini yazdı.

*Zümrüd BAYRAMOVA*

# "Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığı müttəfiqlik səviyyəsinə yüksəlib"

"Azərbaycan ilə Gürcüstan arasında sarsılmaz dostluq və qardaşlıq əlaqələrinin tarixi çox qədimdir. Bu münasibətlər zəngin ənənələr üzərində qurulub. Əsrlər boyu xalqlarımız dostluq, qardaşlıq, mehriban qonşuluq şəraitində yaşamışlar. Dövlətlərarası əlaqələr də bu möhkəm təməl üzərində inkişaf edir. İki ölkənin münasibətlərinin tarixinə nəzər salsaq bu fikri böyük əminliklə qeyd edə bilərik ki, 1993-cü ildə ulu öndər Heydər Əliyevin və Gürcüstanın keçmiş Prezidenti Eduard Şevardnadzenin hakimiyyətə gəlməsi əməkdaşlıqda yeni səhifə açdı. Hər iki liderin Azərbaycanla Gürcüstan arasında əlaqələrin yüksələn xətlə inkişafında rolu böyükdür. Təbii ki, burada onların şəxsi nüfuzu, eyni zamanda, bir-birlərinə yaxın dost münasibətləri də əhəmiyyətli rol oynadı. Eyni regionda, mürəkkəb coğrafi ərazidə yerləşən hər iki ölkənin əsrlərə söykənən qonşuluq, dostluq əlaqələri müstəqillik illərində daha da genişləndi, iştirak etdikləri qlobal infrastruktur layihələrinin həlli ilə dünyanın enerji xəritəsinin dəyişməsinə təsir göstərdilər. Bu baxımdan tam əminliklə söyləmək olar ki, möhkəm iradə, etibarlı təməl üzərində formalaşan münasibətlər bu gün artıq dövlətlərarası tərəfdaşlığı gücləndirən amil kimi diqqəti cəlb edir. Bu gün Gürcüstan və Azərbaycan bütün sahələrdə çox uğurla əməkdaşlıq edir, siyasi, iqtisadi münasibətlər, hər iki xalq arasında əsrlərdən bəri davam edən mehriban qonşuluq əlaqələri getdikcə möhkəmlənir. Dövlət başçısı İlham Əliyevin oktyabrın 24-də Gürcüstana işgüzar səfəri çərçivəsində liderlərin mətbuata birgə bəyanatları zamanı Gürcüstanın Baş naziri İrakli Qaribaşvili bu məqama xüsusi diqqət yönəldərək bildirdi: "Mən Sizin atanızdan, ölkənizin Ümummilli Liderindən sitat gətirmək istəyirəm. Onun xatirəsinə bizim dərin ehtiramımız var. O, vaxtilə Gürcüstanda Tbilisidə olanda demişdi, Azərbaycan və gürcü xalqları xoşbəxtdirlər ki, onlar qonşu xalqlardır. Bizim əcdadlarımız həmin təmasları yaradıb və bu gün bizim vəzifəmiz odur ki, həmin əməkdaşlığı irəli aparaq və gələcək nəsillərə ötürək." O da qeyd edildi ki, ölkələrimiz arasında mehriban qonşuluq münasibətləri və strateji tərəfdaşlıq, o cümlədən əməkdaşlığın gündəliyi səfərin əhəmiyyətini açıqlayır. Azərbaycanla Gürcüstanın bu qədər yaxın olmasına dövlət başçısı İlham Əliyevin töhfələrinin



böyüklüyü Gürcüstanın Baş naziri tərəfindən xüsusi vurğulandı". Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, bu il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 ili tamam olur: "Ötən 30 il münasibətlərimizin strateji tərəfdaşlıqdan müttəfiqliyə doğru inkişafına bələdçilik edir. Onu da qeyd edək ki, 1995-ci ildə Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ildə isə Tbilisidə Azərbaycan səfirliyinin açılması ikitərəfli əlaqələrin inkişafına əlavə stimul verdi. Gürcüstanla Azərbaycanı biri-birlərinə daha sıx tellərlə bağlayan eyni zamanda, qlobal enerji və nəqliyyat layihələridir. İkitərəfli layihələr təkcə iki ölkə və region üçün deyil, ümumilikdə Avropa üçün önəmlidir."

"Beynəlxalq əməkdaşlığın başlanğıcı kimi dəyərləndirilən Cənub Qaz Dəhlizindən öncə regional əməkdaşlığın inkişafına yönələn Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, eyni zamanda, iqtisadi və siyasi əhəmiyyətinə görə adları çəkilən layihələrdən heç də geri qalmayan Bakı-Tbilisi-Qars dəmir yolu xətti artıq reallığa çevrilib.

Göründüyü kimi, Azərbaycan-Gürcüstan əlaqələrinin yeni mərhələsi olan enerji və nəqliyyat layihələri tərəfdaşlığın daha mühüm istiqamət üzrə inkişafını şərtləndirdi. Dövlət başçısı İlham Əliyevin və Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin bəyanatlarında qeyd olunduğu kimi, əməkdaşlığın əsas hissəsinin energetika sektoruna aid olması birgə səyin bəhrəsi, ölkələrimizin iqtisadi inkişafını yüksəldən başlıca amildir. Xəzər, Qara və Aralıq dənizlərini neft-qaz kəmərləri ilə birləşdirən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələrinin reallaşmasında birgə səy göstərən Azərbaycan, Gürcüstan və Türkiyə beynəlxalq ictimaiyyətə qarşılıqlı əməkdaşlıq təcrübəsini nümunə kimi göstərdilər. XXI əsrin tarixi hadisəsi adlandırılan Cənub Qaz Dəhlizinin, onun əsas seqmentləri olan TANAP və TAP-ın uğurlu icrası təkcə bölgənin deyil, bütövlükdə dünyanın ən böyük infrastruktur layihəsi kimi dəyərləndirilir. Əgər bu layihələrin icrasına başlanılarkən üç ölkə əməkdaşlıq edirdisə, bu gün belə dövlətlərin sayı daha da artır və yeni tərəfdaşlar sözügedən layihələrə cəlb edilir. Cənub Qaz Dəhlizi layihəsində Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliyanın birgə iştirakı ilə yaradılan geniş beynəlxalq əməkdaşlıq formatı Azərbaycanın bölgədə nüfuzunu daha da artırır",-deyə Vüqar Rəhimzadə bildirib.

YAP Xətai rayon təşkilatının sədri qeyd edib ki, Azərbaycan-Gürcüstan münasibətlərinin əsasını təşkil edən enerji və nəqliyyat layihələri əməkdaşlığın təməl daşıdır: "İnfrastruktur layihələri bütün dünya xalqları üçün önəmlidir. Asiyanı, Çini və Avropanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun reallaşmasında iştirak edən hər üç ölkənin əməkdaşlıq formatı sabitlik nümunəsidir. Enerji və nəqliyyat sahəsində yeni layihələri, həmçinin Avropa İttifaqı ölkələrinə qaz ixracının genişləndirilməsini və 2027-ci ildə 20 milyard kubmetrə çatdırılmasını, elektrik enerjisi ixracının artırılmasını, işğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji gücünün 10 gvt, Xəzərdə isə 157 gvt təşkil etməsini, Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə yük daşımalarının 5 milyon tona kimi yüksəldilməsini də xüsusi qeyd etməliyik. Asiyadan Qərbə və əksinə, yükdaşımaların artması yeni reallıq yaradır. Azərbaycan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ötürmə qabiliyyətini 15 milyon tondan 25 milyon tona çatdırmağı planlaşdırır. Ümumiləşdirilmiş şəkildə qeyd etsək, dünyada enerjiyə tələbatın artdığı zamanda Azərbaycan-Gürcüstan əlaqələrinin daha da genişlənməsi iki ölkənin bir cəbhədə dayanaraq öz maraqlarını təmin etməsinə imkan verir."

Vüqar Rəhimzadə qeyd edib ki, qarşılıqlı səfərlər ikitərəfli əməkdaşlığın gündəliyinin təhlilində və ona yeni əlavələrin edilməsində əhəmiyyətli rol oynayır: "Günümüzün əsas müzakirə mövzularından biri də bölgədə dayanıqlı sülhün və təhlükəsizliyin yaradılmasıdır. Tarixi Zəfərimizin yaratdığı reallıqlar yeni əməkdaşlıq formatlarının həyata vəsiqə almasına yol açır. Bu da öz növbəsində Azərbaycanın Ermənistana təklif etdiyi 5 prinsip əsasında sülh müqaviləsinin qısa zamanda imzalanmasını bir tələbə çevirir. Dövlət başçısı İlham Əliyevin Gürcüstan səfəri zamanı bu məsələ də əsas müzakirə mövzusu oldu. Prezident İlham Əliyev ümid etdiyini bildirdi ki, Ermənistan tərəfi də siyasi iradə göstərərək beynəlxalq birlik tərəfindən tanınan əsas təməl prinsiplər əsasında Azərbaycanla sülh müqaviləsini imzalayacaq. Əgər belə olarsa, Cənubi Qafqaza sülh gələcək və eyni zamanda, əməkdaşlıq üçün imkanlar yaranacaq. Səfər çərçivəsində Gürcüstan-Azərbaycan-Ermənistan məsləhətləşmələrinə başlanılması haqqında fikir mübadiləsinin aparılması da bunun təsdiqidir."

"Bir sözlə, münasibətlərdə yeni səhifə açacaq bu səfər bir daha təsdiqlədi ki, iki ölkənin imza atdığı uğurların təməlində xalqlarımızın, liderlərin dostluğu və birgə fəaliyyət dayanır" söyləyən YAP Xətai rayon təşkilatının sədri bildirib ki, regional əməkdaşlığın aparıcı qüvvələri olan Azərbaycan, Türkiyə və Gürcüstan beynəlxalq əməkdaşlıqda da öz sözlərini deyir, ölkələrimizin möhkəm təmələ əsaslanan əlaqələrini daha da sarsılmaz edir. Bu birlik, həmrəylik regionda sabitliyin, təhlükəsizliyin qarantıdır.

# Dünya bazarındakı qiymət artımı Azərbaycana necə təsir göstərir?



**İqtisadçı-ekspert danışdı**

**"Dünya bazarındakı qiymət artımları Azərbaycana idxal inflyasiya formasında təsir göstərir". Bu fikirləri SİA-ya açıqlamasında millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramov bildirib.**

Onun sözlərinə görə, Dövlət Statistikası Komitəsinin məlumatı onu deməyə əsas verir ki, ölkəyə daxil olan məhsullarda müşahidə edilən artım istehlak bazarında qiymətlərin proqnozlaşdırılmasından daha çox artmasına gətirib çıxardır: "Bu Azərbaycandakı istehlak bazarında qiymətlərin artması təbii ki, arzuolunan bir hal deyil. Bu kontekstdə Nazirlər Kabinetinin əsas həyata keçirdiyi fəaliyyətlərdən biri də məhz anti-inflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlıdır. Strateji olaraq idxalın aradan qaldırılması dünya bazarındakı qiymət artımlarının Azərbaycandakı istehlak bazarındakı təsirlərini minimallaşdıra bilər. Bu baxımdan əsas məqsədlərdən biri də dünya bazarındakı qiymətlərin Azərbaycanın istehlak bazarına təhsillərini minimallaşdırmaq üçün yerli istehsalın genişləndirilməsi, idxalın payının azaldılmasına nail olmaqdır".




*Banuçiçək Hüseynli*

# Fransız hüquq müdafiəçisi Makronu rüsvay etdi

## *Tyeri Valle: "Bu, Fransa diplomatiyasının son illərdəki ən pis addımıdır"*

**Fransa prezidenti Emmanuel Makronun Qarabağla bağlı son bəyanatını fransalı hüquq müdafiəçisi Tyeri Valle məhz bu cür ifadə edib. SİA xəbər verir ki, onun Makrona ünvanladığı açıq məktubunu Fransanın nüfuzlu "Causeur" dərgisi dərc edib. Valle qeyd edib. SİTAT: "Siz öz bəyanatınızla Cənubi Qafqazdakı zərif sülhü və erməni-azərbaycanlı münasibətlərinin normallaşması istiqamətində fəaliyyət göstərən Avropa İttifaqının rolunu təhlükə altında qoydunuz".**



CAUSEUR
Surtout si vous n'êtes pas d'accord

Monde

« Il n'y a pas de réconciliation sans confiance et il n'y a pas de confiance sans vérité ». Pour une paix juste dans le Caucase du Sud

Thierry Valle - 24 octobre 2022

"Belə ki, tərəflərin Praqada qarşılıqlı olaraq bir-birlərinin suverenliklərini tanımaları fonunda Fransa prezidentinin "Qarabağ Ermənistanın qəlbidir" bəyanatını səsləndirməsi yalnız beynəlxalq hüquqa göstərilən hörmətsizlik deyil, həm də danışıqlar prosesindəki uğurlara xələl gətirir", deyə açıq məktubunda qeyd edən hüquq müdafiəçisinə görə bu, Fransa diplomatiyasının son illərdəki ən pis addımıdır.

*Rövşən RƏSULOV*

# Musiqi salnaməmizə mühüm səhifələr yazmış tar ifaçısı

## Dövlət başçısı İlham Əliyevin Sərəncamına əsasən, Əhməd Bakıxanovun 130 illik yubileyi qeyd olunacaq



Azərbaycan tar ifaçılıq sənəti ənənələrinin layiqli davamçılarından olan milli musiqi sənətinin görkəmli nümayəndəsi, respublikanın xalq artisti, ustad tarzən və mahir pedaqoq, Əhməd Bakıxanovun anadan olmasının 130 ili tamam olur. Sənətkarın 130 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, Mədəniyyət Nazirliyi Əhməd Bakıxanovun 130 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirəcək. Sərəncamdan irəli gələn məsələləri Nazirlər Kabineti həll edəcək.Daim axtarışlarla dolu geniş və çoxşaxəli yaradıcılığı ilə Azərbaycanın musiqi sənəti xəzinəsinə dəyərli töhfələr vermiş Əhməd Bakıxanov muğam aləminin mükəmməl bilicisi və tar ifaçılığının sirlərinə dərindən yiyələnən, yüksək istedada malik sənətkar kimi şöhrət qazanmışdır. Xalqımızın misilsiz mədəni-mənəvi irsini bütün fəaliyyəti boyu klassik ənənələrə sədaqətlə qoruyub yaşatmış sənətkarın ifa etdiyi muğamlar, eləcə də bəstələdiyi mahnı, rəng və təsniflər parlaq sənət nümunələri kimi musiqimizin qızıl fondunda özünəməxsus layiqli yer tutur. Sərəncamda qeyd olunduğu kimi, Əhməd Bakıxanovun təşkilatçısı və uzun illər ərzində rəhbəri olduğu xalq çalğı alətləri ansamblı zəngin repertuarı ilə seçilmiş və ölkənin mədəni həyatında yaxından iştirak etmişdir. Musiqi salnaməmizə mühüm səhifələr yazmış tar ifaçılarının bütöv bir nəsli məhz Əhməd Bakıxanovun yetirmələridir.5 sentyabr 1892-ci ildə Bakıda anadan olan tarzən ilk musiqi təhsilini İranda almışdır. On altı yaşlı Əhməd Bakıxanov orada məşhur xanəndə Əbdülhəsən xandan musiqi sirlərini öyrənməyə başlayıb. Qabiliyyətli şagird olduğunu ilk günlərdən göstərib. Qısa vaxtda musiqi sənətinin çox dərinliklərindən, incəliklərindən xəbərdar olub. Ustad tarzənlərdən tar ifaçılığının və muğamatın sirlərini öyrənib.Ailəlikcə Bakıya qayıtdıqdan sonra Əhməd Bakıxanov təhsilini doğma şəhərində davam etdirib. Dövrünün görkəmli tarzənlərinin yanına gedib, onların ifaçılıq ustalığına diqqət yetirib, daim öyrənib.

1920-ci ildən Bakıda musiqi məclislərində və konsertlərdə fərqli ifası ilə tanınıb və sevilib. 1920-ci ildən Bakıda musiqi məclislərində və konsertlərdə ifa etmişdir. 1930-cu illərdən Üzeyir Hacıbəylinin dəvəti ilə Azərbaycan Dövlət Konservatoriyasında, daha sonra Azərbaycan Dövlət Musiqi Kollecində muğamdan dərs demişdir. 1931-ci ildə Xalq Çalğı Alətləri Ansamblını yaratmış, ömrünün sonunadək bu ansambla rəhbərlik etmişdir. 1973-cü ildən həmin ansambl Əhməd Bakıxanovun adını daşıyır. Tara, muğama hücum edilən zaman, keçən əsrin 30-cu illərində Əhməd Bakıxanov dahi bəstəkar Üzeyir bəy Hacıbəyli ilə birlikdə xalqımızın milli sərvəti olan muğamın, tarın qorunub saxlanılmasında böyük işlər görüb. Ə.Bakıxanov "Azərbaycan xalq rəngləri", "Azərbaycan ritmik muğamları", "Muğam, mahnı, rəng" kimi not nəşrlərinin müəllifidir. Əhməd Bakıxanovun ifasından bir çox instrumental muğamlar - "Rast", "Şur", "Bayatı-Şiraz", "Segah-Zabul", "Rahab", "Şüştər", "Hümayun", "Şahnaz" muğamları bəstəkar Nəriman Məmmədov tərəfindən nota salınaraq çap olunmuşdur. Ə.Bakıxanovun mənzilində Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı yaradılmış, burada tarzənin xalq çalğı alətlərindən ibarət zəngin kolleksiyası nümayiş olunur.1994-cü ildə Əhməd Bakıxanovun 100 illiyinə həsr olunmuş tələbə və gənclərin tar alətində muğam ifaçılığı üzrə respublika müsabiqəsi keçirilmişdir.Azərbaycan milli ifaçılıq məktəbinin inkişafında, xalq musiqisinin, muğamların tədrisi və təbliğində xüsusi xidmətləri olan sənətkar 26 mart 1973-cü ildə vəfat etmiş, İkinci Fəxri Xiyabanda dəfn olunmuşdur.Sənətkarın ifasında lentə alınmış muğamlarımız, eləcə də bəstələdiyi əsərlər gözəl sənət nümunələri kimi musiqi tariximizdə silinməz iz salıb.

***Zümrüd BAYRAMOVA***

# Paşinyan Astana sammitində kənarda necə görünürdü?

## Erməni KİV: "Axı sarı mətbuatdan siyasətə gələn sərsəm belə şeyləri haradan bilsin ki?"



Ermənistanın "Qolos Armenii" nəşri "İkinci kapitulyasiyaya beş dəqiqə qalmış" sərlövhəli məqalə ilə çıxış edib və həmin məqalədə Astanada keçirilmiş MDB ölkələri başçılarının sammiti zamanı Nikol Paşinyanın düşdüyü vəziyyəti diqqət çəkən nüanslarla şərh edib. Ümumiyyətlə, digər ölkə liderlərinin qarşısında Paşinyanın cılız və aciz görünməsinə işarə edən erməni nəşri yazır. SİTAT: "Uğursuz kapitulyant digər ölkələrin liderləri fonunda liderə deyil, daha çox paviana bənzəyirdi. O, Astanada çıxışı zamanı mətni kağızdan oxuyarkən kamera növbə ilə orada iştirak edənlərin ironik, nifrət emosiyalarını fiksasiya edirdi ki, Paşinyan başqa cür emosiyalara layiq də deyil".

### "Kollektiv Qərbin Paşinyanın şəxsinə artan marağı ona görədir ki..."

Adıçəkilən nəşr Paşinyanın publik şəkildə və spekulyativ vasitə ilə Rusiyanın öz üzərinə düşdüyü öhdəliklərini yerinə yetirməməsi barədə çıxışını da hədəfə alıb və yazıb ki, belə məsələlər açıq mətnlə həll olunmur. SİTAT: "Ancaq praktiki siyasəti anlamayan sərsəm bunu edə bilərdi. Axı sarı mətbuatdan siyasətə gələn sərsəm belə şeyləri haradan bilsin ki?"

"Qolos Armenii" Qərbin Paşinyana nəyə görə bu qədər maraq göstərməsinə və diqqət ayırmasına da diqqət çəkib. SİTAT: "Kollektiv Qərbin Paşinyanın şəxsinə artan marağı ona görədir ki, Rusiyanı publik şəkildə hədəfə aldı və bildirdi ki, Rusiya özünün strateji partnyorlarının təhlükəsizliyini təmin etmək gücündə deyil. O, bununla göstərmək istəyib ki, Moskvaya ümid bəsləmək və onun partnyorluğuna arxalanmaq olmaz".

### "Azərbaycan Prezidenti Nikoldan fərqli olaraq diplomatiyanın elementar normaları ilə kifayət qədər tanışdır"

Erməni nəşri Paşinyanın qeyd edilən davranışları fonunda Azərbaycan Prezidenti İlham Əliyevin praqmatikliyinə və liderlik keyfiyyətlərinə toxunub. SİTAT: "Paşinyandan fərqli olaraq Əliyev sentyabrın 13-də baş vermiş hadisələrin başa çatmasında Rusiyanın rolundan danışıb. Ola bilsin ki, Azərbaycan Prezidenti belə düşünmür, ancaq o belə danışır, ona görə ki, Nikoldan fərqli olaraq diplomatiyanın elementar normaları ilə kifayət qədər tanışdır".

Nəşr Paşinyan hakimiyyətini rejim adlandırır və qeyd edir sentyabr olaylarının dayandırılmasında əsas işi ABŞ-ın dövlət katibi Entoni Blinken görüb. Eyni zamanda xatırladılıb ki, qarşıda Moskva görüşü gözlənilir və nəşr "əsas danışıqçı" deyərkən Paşinyanın dəyişdirilməsi, yəni iqtidardan uzaqlaşdırılması vacibliyinə də eyham vurub. SİTAT: "Nikolun Moskvaya xaç yürüşü Qərb dairələrinin açıq təhriki altında baş tutacaq və bu, erməni xalqına baha başa gələcək, əgər xalq yaxın zamanlarda əsas danışıqçını dəyişdirməsə..."

***Rövşən RƏSULOV***

# "Yanlış siyasət İranın sonunu gətirər"

"Heç kimə sirr deyil ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra İran dediyimiz ölkə özünü tikanın üstündə oturmuş kimi hiss etməyə başladı. Bunun da başlıca səbəbi Türkmənçay müqaviləsi ilə ikiyə bölünən Azərbaycanın yenidən bir olma qorxusundan qaynaqlanır". Bu fikirləri SİA-ya açıqlamasında siyasi ekspert Elçin Abdullayev bildirib.

Onun sözlərinə görə, məlum qorxu hissi, tarixin müxtəlif vaxtlarında İranı vadar edirdi ki, müstəqil Azərbaycana qarşı müəyyən təxribatlara əl atsın. Baxmayaraq ki, Azərbaycan İrana hər zaman dostluq münasibəti bəsləyib. Onlar isə əvəzində Azərbaycana əzələ nümayiş etdirmək üçün dəfələrlə sərhədlərimizi pozurdular.

2020-ci il Vətən müharibəsindən sonra isə regondakı vəziyyət, o cümlədən güc tarazlığı köklü sürətdə dəyişməyə başladı. Bakı və Ankaranın ikinci Qarabağ müharibəsində fəal və həlledici sözə sahib olması, İranın Cənubi Qafqaza açılan pəncərələrinə kölgə düşürdü. Bir növ İranın arzularını üreyində qoydu. Məhz ona görə də molla rejimi 44 günlük savaş boyunca erməni qardaşlarına əlindən gələn köməkliyi göstərdi ki, müharibəni uduzmasın. Göstərilən dəstək bir neçə istiqamətdə, o cümlədən hərbi, diplomatik və informasiya baxımından açıq-aydın görünürdü. Ermənistana İran üzərindən çatdırılan silahları, müharibənin ilk günlərində Tehran rəsmilərinin qardaşlıq etdiyi ölkəni xilas etmək üçün Azərbaycanın dövlət başçısı və xarici işlər naziri ilə bir-neçə dəfə görüşərək atəşkəsə nail olmaq təşəbbüsü, eyni zamanda, həmin ərəfədə Prezident İlham Əliyevin xarici KİV-lər üçün keçirdiyi brifinqdə



iranlı jurnalistinin verdiyi qərəzli sualı xatırlatmaq kifayət edir ki, cənub qonşumuzun bizə qarşı münasibətinin nədən ibarət olduğunu görək.

İkinci Qarabağ müharibəsini qələbə ilə başa çatdıran rəsmi Bakı, bu gün İranla olan sərhədlərinə tam nəzarəti ələ alıb. Söhbət o sərhədlərdən gedir ki, qarşı tərəfdə yaşayan insanlar Azərbaycan türkləridir. Hansı ki, 44 günlük müharibə dövründə sərhəddəki soydaşlarımız Azərbaycan əsgərinin möhtəşəm zəfərini göz yaşları ilə seyr edir və alqışlayırdılar. Bax, İranı məhz bu münasibətdir qorxu içində saxlayan. Ona görə də Azərbaycanın sərhədləri boyunca ordu yığıb hərbi təlimlər keçir. Ancaq əminliklə deyirəm ki, İranın bu təşəbbüsü iflasa uğrayacaq. Yaxşı olar ki, Tehran çömçəni əlinə alıb, sabitliyə doğru addım-addım yaxınlaşan bölgəni qarışdırmağa cəhdlər etməsin. Bugünkü Azərbaycan 90-cı illərin və 2000-ci illərin Azərbaycanı deyil. Ölkəmizin həm qüdrətli ordusu var, həm də etibar edəcəyi dost-qardaş dövlətlər var ki, İranın başına od yağdırarlar. Ən əsası isə İran Azərbaycana qarşı hər hansı kiçik bir addım atacağı təqdirdə, daxilindəki 40 milyonluq soydaşımızın müqavimətini nəzərə almalıdır. İran əgər, bölgədə aktiv siyasət yürütmək istəyirsə, bir zəhmət bunu əsla və əsla Azərbaycan üzərindən etməməlidir. Bu cür yanlış siyasət İranın sonunu gətirər. Buna əminəm".

***Abutel İlhamqızı***

# İran tərəfindən BÖYÜK SƏHV

**Azərbaycanla sərhəddə genişmiqyaslı hərbi təlimlərə başlayan İran növbəti dəfə əzələ nümayiş etdirmək qərarına gəlib. İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) Quru Qoşunları tərəfindən Şərqi Azərbaycan və Ərdəbil əyalətlərinin şimalında keçirilən hərbi təlimlərlə İran yenə də öz mövqeyini, məhz ermənipərəst mövqeyini, erməni sevgisini, Azərbaycan-Türkiyə qardaşlığına olan qısqanclığını ortaya qoyub. Maraqlıdır, görəsən bu təlimlərin Azərbaycan üçün hansısa təhlükəsi varmı və bununla İran nəyə isə nail olacağına özü belə inanırmı?**



İran tərəfinin keçirdiyi təlimlərin hansısa təhlükə yaradacağından söhbət belə gedə bilməz və bunun üçün zərrə qədər narahatçılığa da ehtiyac yoxdur. Əvvəla ona görə ki, bu təlimlərin birinci dəfə keçirilmədiyini və hər dəfə də heç bir nəticə vermədiyini hər kəs bilir. Digər tərəfdən də İran necə və hansı əsasla Azərbacanın daxili işlərinə burnunu soxa bilər? Həm də axı Azərbaycan artıq ötən əsrin 90-cı illərindəki yenicə müstəqilliyini bərpa edən zəif bir ölkə deyil, topu, topxanası, nizami ordusu, hərbi potensialı, gücü, qüdrəti var və daxili işlərinə hansısa ölkənin qarışmasına bilmərrə izn verməyəcək bir əzm göstərmək imkanına sahibdir. Elə isə bu təlimlər nə deməkdir və ölkəmizin imkanlarını, bizim daxili işlərimizə burnunu söxmaq baxımından özünün imkansızlığını bilən bir ölkə, qonşu dövlət olan İranın belə təlimlərə başlaması nə deməkdir? Əlbəttə, reallıqları bildiyimiz halda bəlli olur ki, İranın təlimləri ancaq daxili auditoriya üçündür və həmin auditoriyaya da hesablanıb.



Təkcə region dövlətləri deyil, bütün dünya müşahidə edir ki, İranın daxilində vəziyyət heç də yaxşı deyil, əksinə həddindən artıq gərgindir. Əvvəla, İran öz daxili vəziyyəti, gərginliyi ilə məşğul olmalı halda, hansısa dövlətin daxili işlərinə qarışmaqla, sadə şəkildə desək, yanlışlıq edir. Digər tərəfdən də açıq-aşkar görünür ki, İranın hədələri öz xalqına hesablanıb. Bu ölkə ilk növbədə öz xalqına əzələ, güc nümayiş etdirir. Bir sözlə, ölkəsinin şimal-şərq sərhədində apardığı hərbi təlimlər plan üzrədir və Azərbaycan belə təhdidləri hesaba da almır, amma qonşu dövlətin belə niyyətini qəti şəkildə pisləyir. Çünki bu təlimlər İranın Azərbacanla sərhəddində keçirilir və üstəlik ölkəmizin ünvanına hədyanlar da səsləndirilir.

Bir qonşu dövlət kimi İran Azərbaycan tərəfindən heç zaman uyğunsuz davranışlar görməyib, hansıki bunu hər zaman özü edib. Azərbaycana qarşı İranın ədalətsiz mövqe sərgiləməsi birinci dəfə deyil. İllərlə bunun şahidi olmuşuq və dəfələrlə İranın yersiz bəyanatlar səsləndirməsini də görmüşük, halbuki sözügedən qonşu dövlət adekvat şəkildə Azərbaycandan bunu heç zaman görməyib. Azərbaycan hər zaman diplomatik münasibətlərdə, üstəlik, qonşu dövlətlərlə olan münasibətlərdə həssas olub və normalar çərçivəsində, etik qaydalar və hüquqi müstəvidə münasibətlərə üstünlük verib. Molla rejimi isə görünür ki, bu diplomatik münasibətlərin, qonşuluq münasibətlərinin hələ də fərqində deyil və Azərbaycana qarşı münasibətləri günü-gündən kəskinləşdirməsi bunu isbatlayır.

İranın hakimiyyət nümayəndələrinin, din xadimlərinin, diplomatlarının Ermənistana səfərlərinin son zamanlar intensivləşməsi təsdiq edir ki, onlar ermənilərlə dost və qardaş olduqlarını nümayişkaranə şəkildə göstərirlər. İranın məhz Ermənistanın tərəfində olduğu da açıq-aşkar görünür və qonşu dövlət bunu göstərməkdən çəkinmir də. Üstəlik, İran tərəfinin diplomat adlandırdığı bəzi siyasətçiləri Azərbaycan əlehinə hədyanlar da səsləndirirlər ki, bu, etik və hüquqi olmaqla, heç bir çərçivəyə sığmır. Ən başlıcası isə özünü bir müsəlman dövləti kimi dünyaya sırıyan İran, məhz vətəndaşlarının böyük əksəriyyəti müsəlman olan qonşusu Azərbaycana qarşı bunu etməklə bütün dəyərləri tapdalayır, dini də, əqidəni də nəzərə almadığını göstərir.

Son zamanlar Azərbaycanla Türkiyənin qardaşlıq münasibətləri, birliyi İranın yuxusunu ərşə çəkib desək, yanılmarıq. Qardaşlıq müstəvisində bir olan bu iki dost ölkənin ən başlıcası regionda, eyni zamanda dünyada söz sahibinə çevrilməsi, nüfuzunun artması, əvvəlkindən daha artıq dərəcədə nəzərə alınması görünür İranın kürkünə birə salıb. İranın hər zaman qorxu içərisində olduğu kimsə üçün sirr deyil və indi bu qorxu özünü açıq-aşkar biruzə verir. Bəlli olur ki, İran hər zaman olduğu kimi, Azərbaycan-Türkiyə tandemini həzm edə bilmir və öz mövqeyini də gizlətməkdə çətinlik çəkir. Bu, özünü islam dövləti kimi göstərən İranın bir xristian ölkəsi olan Ermənistana yön almasında, haqsız, təcavüzkar olmaları fonunda ermənilərin tərəfini saxlamasında aydın şəkildə görünür. Aydın şəkildə görünür ki, məhz Türkiə və Azərbaycanın dostluğuna, qardaşlığına qarşı İran da Ermənistanla yaxınlıq edir, hətta bu ölkənin diplomatları göstərmək istədikləri qardaşlığı etiraf da edirlər.

Xristian ölkəsi olan Ermənistanın təkcə son dövrlədə yox, onillər boyu Azərbaycanın müsəlman əhalisinə divan tutması, təcavuz etməsi fonunda İranın həmin təcavüzkar ölkənin yanında olması həm təəccüb, həm təəssüf, həm də ikrah doğurur. Ona görə təəccüb doğurur ki, bir müsəlman ölkəsi müsəlman dini mənsubiyyətli əhaliyə qarşı dəfələrlə soyqırımlar edən, ümumiyyətlə müsəlman əhaliyə qarşı soyqırım siyasəti yürüdən xristian ölkəsini dəstəkləyir və bu heç də normal hal deyil, kənardan qeyri-adi görünür. Əminliklə deyə bilərik ki, dünyanın istənilən nöqtəsində buna, İranın belə bir mövqeyinə normal baxılmaz. Təəssüf doğurur ona görə ki, müsəlman əhalini hər imkan düşdükdə qıran, yurd-yuvalarını, dini-mədəni abidələrini dağıdan, onları didərgin salan, özünə düşmən hesab edən ermənilərin, Ermənistanın tərəfini müsəlman ölkəsi kimi tanınan İran tutur. Buna da əminik ki, dünyanın heç bir yerində yaşayan müsəlman bununla barışa bilməz və öz müsəlman qardaşlarının qanına susayan ermənilərin, ümumilikdə Ermənistanı bir müsəlman ölkəsinin dəstəkləməsinə, həmin dövlətin tərəfini tutmasına, özü də haqsız olduğu halda tərəfini tutmasına ən azından təəssüf hissi keçirər və keçirir də. Sözsüz ki, sadalanan hallar özü-özlüyündə həm də ikrah hissi doğurmaya da bilməz, çünki özünü müsəlman adlandıranların öz müsəlman qardaşlarını qanına qəltan edənlərlə döstluq etməsi, onlara dəstək olması ikrah hissinə, nifrətə layiqdir.

Maraqlıdır, İranın xəbəri yoxdurmu ki, ermənilər 30 ilə yaxın müddət ərzində işğal altında saxladıqları Azərbacan ərazilərində müsəlmanlara məxsus məscidləri darmadağın ediblər, həmin məscidlərdə heyvan, özü də donuz saxlayıblar? Bu həqiqəti bəlkə də bilməyən yoxdur. İran tərəfinin isə bunu bilmədiyini kimsə söyləyə bilməz və belə olan halda, molla rejimi yenə də Ermənistanı, erməniləri dəstəkləməyə davam edirsə, buna ad vermək də çətindir. Ona görə ki, məscidlər təkcə Azərbaycana məxsus deyil, bütün müsəlmanların müqəddəs məkanıdır. İran tərəfi məscidlərə olan hörmətsizliyin, özü də ermənilər tərəfindən edilən hörmətsizliyin, təhqiramiz hərəkətlərin fonunda Ermənistana dəstək göstərirsə, bu dövləti müsəlman dövləti belə adlandırmaq çətindir. Molla rejimi qonşu dövlət olan, özü də öz mübarizəsində haqlı, ədalətli dövlət olan Azərbaycan tərəfindən utanmırsa, heç olmasa məscidlərə daxil olanda məscidlərə hörmətsizlik edənləri dəstəklədiyinə görə utansın.



”Biz Zəngəzurda yerləşməliyik, Türkiyə ilə Azərbacan qardaş deyil, məzhəb daha güclüdür, Azərbaycan tərpənsə, Bakıda başını əzəcəyik”, deyən İran diplomatı Əbülfəz Zöhrəvənd nə danışdığının, dediklərinin məsuliyyətini dərk etməlidir. Dərk etməlidir ki, əvvəla dinini, imanını, inancını, əqidəsini təhqir edənlərin dəyirmanına su tökür, onları dəstəkləyir və bu həddindən artıq iyrənc təəssürat yaradır. Hətta müsəlman olduğuna belə şübhə yaradır, çünki müsəlman baş kəsməkdən, qan tökməkdən dəm vurmaz. İslam dini barış dinidir, sülhü, əmin-amanlığı tərənnüm edən dindir və əgər bunun əksini ifadə edən kimsə özünü müsəlman hesab edirsə bərk yanılır. Çünki müsəlman olan kəs müqəddəs kitabımız olan Qurana istinad etməli, ilk növbədə dini, imanını, əqidəsini üstün tutmalı, qorumalıdır və müsəlman qardaşlarının, azərbaycanlıların hər fürsət düşdüyü zaman cəlladcasına başını kəsən, əsir götürüb olmazın əziyyət verən, haqqını tapdalayan, məscidlərini təhqir edən ermənilərə dəstək verməməlidir. Digər tərəfdən də Zöhrəvəndin timsalında İranın hansısa diplomatının uyğunsuz ifadələr işlətməsi də qəbuledilən deyil və heç bir normaya sığışmır. Bu cür ifadələr diplomatik davranışlara belə yaddır.

Onu da diqqətə çatdıraq ki, İran tərəfinin, molla rejiminin diplomatları davamlı şəkildə Azərbaycan əleyhinə uyğunsuz ifadələr işlətməkdə nəinki səhv edirlər, hətta həddi aşırlar və buna görə cavabdeh olduqlarını bilməlidirlər. Bilməlidirlər ki, Azərbaycan dövləti ilə heç bir ölkə təhdid dili ilə danışa bilməz. İran da istisna deyil və Azərbaycanın işlərinə qarışmağa kimsəyə imkan verilmir. Əgər bunu bilmirlərsə, yaxud özlərini bilməməzliyə vururlarsa, bununla özlərini aldatmış və çətin vəziyyətdə qoymuş olurlar. İran öz ermənipərəst mövqeyini, erməni sevgisini ortaya qoymaqla böyük səhvə yol verir. Bir sözlə, erməniləri özlərinə dost hesab etmək İran tərəfindən böyük səhvdir.

***İnam Hacıyev***

# Şəhadətə qovuşanlar

## İlham Əliyev: "Onlar öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırdı"

Bu gün Azərbaycan qalib dövlətdir. Torpaqlarını işğaldan azad edən qalib xalqdır. Əlbəttə ki, tarixi qələbəni bəzi yaşadan Azərbaycan Prezidenti İlham Əliyevdir, Müzəffər Azərbaycan Ordusudur. 30 ilə yaxın həsrətlə gözlədiyimiz torpaqlarımıza yol alırıq. Al qırmızı şəhid qanı ilə suvarılan torpaqlara. Neçə canın nəfəsi var, müqəddəs sevgisi var bu torpaqlarda. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğullarının şücaəti, mücadiləsi milyonlarla insanlara qələbə sevincini yaşatdı. Müzəffər Azərbaycan ordusu və onun Sərkərdəsi Cənab İlham Əliyev tariximizə yeni bir gün yazdı. Bu elə bir gündür ki, zaman-zaman Azərbaycan xalqının torpaq uğurunda savaşını, böyüklüyünü, bütövlüyünü, lazım gələndə bir yumruq olaraq birləşməsini yetişən nəsillərə illər, qərinələr, əsrlər sonra belə təqdim edəcək. Bu qələbədə minlərlə azərbaycanlı gəncin payı var. Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən bu tarixi gündə gənclərimiz nəyə qadir olduqlarını göstərə bildilər. Azərbaycanın qələbə sorağı dünyaya yayıldı. Zəfər günümüzü yaşadıq. Artıq bu gün tarixiləşdi.










### "ƏSAS YÜKÜ, ƏSAS VƏZİFƏNİ GƏNC NƏSİL YERİNƏ YETİRDİ"

Bir daha 44 günlük müharibədə müstəqil Azərbaycan dövlətinin gənclərinin nə qədər vətənpərvər olduğunu görmüş olduq. Cəmiyyətin aparıcı qüvvəsinə çevrilən gənclər daim axtarışda olan, yeniliyi sevən bir qüvvə olduqları kimi, vətəni necə qorumaq və sevmək kimi dəyərləri ilə nümunəyə çevrildilər. Vətənpərvər ruhda tərbiyə almış Azərbaycan gənci hər qarış torpağın müdafiəsində dayandı. Gənclərin Vətən müharibəsi başlayanda könüllü olaraq orduya yazılması, Vətən torpaqlarının müdafiəsinə qalxması vahid niyyət ətrafında birləşən gənclərimizin əzmkarlığını, vətənə sevgisini bir daha göstərmiş oldu. Öz iradəsi, gücü ilə. "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib", deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir: "Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi".

Respublikasının dövlətçilik rəmzləri sırasında yer alan Dövlət Bayrağını hər şeydən uca tutan gənclərimiz qürur mənbəyimiz, and yerimiz olan Bayrağımız qarşısında baş əyərək, müqəddəs varlıq kimi ona and içdilər. Bu Azərbaycan Ordusunun, gəncinin sahib olduğu gücə, bayrağımıza olan dərin məhəbbətindən və sədaqətindən qaynaqlanır. Azərbaycan əsgəri vətənimizin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı şərəfli əsgəri vəzifəsini yerinə yetirməyə başlayarkən, müqəddəs bayrağımıza and içir. Vətən torpağının bütövlüyü uğrunda şəhidliyə hazır olan Azərbaycan əsgəri o bayrağa sarılaraq şərəfli mübarizəyə qoşulur, vətənin azadlığı uğrunda övladını qurban vermiş valideynlər şəhid cənazəsinə bükülmüş müqəddəs bayraqla təskinlik tapırlar. Budur, bayrağın müqədəsliyi və bayrağımıza olan sevgi.

### QUBADLININ AZADLIĞI UĞRUNDAKI DÖYÜŞLƏRDƏ QƏHRƏMANCASINA ŞƏHİD OLAN VƏTƏN OĞLU

Neçə-neçə gəncimiz vətən torpağının işğaldan azad olunmasına qoşuldu, şəhadətə qovuşdular. 2020-ci ilin 25 oktyabr tarixində müharibənin şiddətli günlərini yaşayırdıq. Hər gün qələbə sevincini yaşamaqla yanaşı, şəhilərimizin cənazəsini də torpağa tapşırırdıq. 1988-ci il iyul ayının 1-də Cəbrayıl rayonunun Qovşudlu kəndində anadan olan Paşayev Elsevər Vaqif oğlunun şəhadətə qovuşması Vətən sevgisi ilə müharibənin qaynar nöqtələrində vuruşduğu zaman olmuşdur. 1994-cü ildə Cəbrayıl rayon 21 saylı ümumi orta məktəbin 1-ci sinfinə gedən Elsevər nə vaxtsa şəhid olacağını heç düşünməmişdi. Amma ilk illərdən vətən torpağının işğalda olduğunu və vətənə çəpər olacaq bir oğul kimi böyüdüyünü yaxşı anlayırdı. 2006-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi məktəbinə daxil olmuş və 2010-cu ildə həmin məktəbi moto-atıcı ixtisası üzrə bitirmişdir. 2011-2013-cü illərdə N saylı hərbi hissədə taqım komandiri, 2013-2018-ci illərdə taqım komandiri - bölük komandiri vəzifələrində xidmət etmişdir. Qəlbi vətən eşqi ilə döyünən Elsevər sanki hərbiçi doğulmuşdur.

Çox savadlı idi. Beş xarici dil bilirdi. Xarici ölkələrdə xarici hərbiçilərə hərbi təlimlər keçmişdir. Əfqanıstanda Azərbaycandan gedən Sülhməramlıların komandiri olmuşdur. 2014-cü ildə NATO təlimində iştirak üçün Bolqarıstanda, 2015-ci ildə snayper atıcı kursunda iştirak etmək üçün Türkiyə Respublikasında, 2019-cu il Böyük Britaniya krallığında, Çexiyada, Almaniyada və 2019-cu ilin dekabrın 11-dən 2020-ci ilin iyulun 1-nə kimi Əfqanıstanda təlimlərdə iştirak edib. Vətənin bölünməzliyi uğrunda gedən İkinci Qarabağ savaşında 400-ə yaxın əsgərimizi mühasirədən çıxaran E.Paşayev Xudafərin körpüsünə Azərbaycan bayrağını sancmışdır. 25 oktyabr 2020-ci il tarixdə Qubadlı şəhərinin azadlığı uğrundakı döyüşlərdə qəhrəmancasına şəhid olmuş, 2-ci Fəxri xiyabanda dəfn edilmişdir. Ailəli-dir, iki övladı vətənə əmanətdir. Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə, Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə mayor Paşayev Elsevər Vaqif oğlu ölümündən sonra "Qarabağ" ordeni, "Vətən Uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə də təltif edilmişdir.

QARABAĞI

### AZADLIĞA QOVUŞDURARAQ ŞƏHADƏTƏ QOVUŞAN İGİDLƏR

Azərbaycan üçün önəmli olan Qarabağ münaqişəsi 30 ildən sonra öz həllini tapdı. Torpaq uğrunda ölən varsa, Vətəndir! Qarabağı azadlığa qovuşduran isə müqəddəs şəhidlik məqamına yüksələn neçə-neçə cəsur, mərd qəhrəmanlar oldu. Bu qəhrəmanlardan biri də Nicat Orucovdur. Orucov Nicat Niyadxan oğlu 20 iyul 1999-cu ildə anadan olub. Hakim Bəşirov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib.26 oktyabrda Şuşa şəhəri ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından həlak olub. Ölümündən sonra bir sıra medallarla təltif edilib. "Vətən Uğrunda" medalı, "Vətən müharibəsi iştirakçısı" medalı, "Kəlbəcərin azad edilməsinə görə" medalı, "Cəbrayılın azad edilməsinə görə" medalı, "Xocavəndin azad edilməsinə görə" medalı, "Füzulinin azad edilməsinə görə" medalı, "Şuşanın azad edilməsinə görə" medalı ilə təltif olunub.Ruhunuz şad olsun igid Vətən oğulları, Azərbaycan sizi heç vaxt unutmayacaq.

Onların qəlbimizdə abidələri ucalıb. Şərəfli yol seçərək, şəhidlik zirvəsinə yüksəldilər və şəhidlik zirvəsinə yüksəldilər. A Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "Qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq. Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq. O insanların ömrü uzun olmadı, amma onlar əbədiyyətə qovuşdu və onlar öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırdı".

*Nəzakət ƏLƏDDİNQIZI*

## Zatulin ermənilərin verdikləri cibxərcliyindən məhrum edilir?

**"...Bizim üçün (...bizim üçün deyəndə,yəni Zatulin üçün- A.B.) qəfil oldu, Ermənistan Respublikası Milli Assambleyasının Xarici Əlaqələr Departamentinin rəhbərindən məktub aldıq. Bizə (mənə) dedilər ki, mənim səfərim arzuolunmazdır və bəyanatlarım Ermənistan Respublikasına ziyan vurur".**

SİA-nın erməni saytlarından əldə etdiyi məlumata görə, bunu Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsi sədrinin birinci müavini erməniпərəst Konstantin Zatulin Ermənistana girişinə qoyulan qadağaya münasibət bildirib.

Qeyd edək ki, çərşənbə axşamı günü baş nazirin ailəsinə məxsus olan "Haykakan Jamanak" nəşri Zatulinin Ermənistana girişinin qadağan edildiyini və onun indi persona non-qrata hesab edildiyini bildirib. Nəşr, Zatulinin Ermənistana girişinə qadağa qoyulmasını onun dəfələrlə erməni hakimiyyətini 44 günlük müharibədə məğlubiyyətdə ittiham etməsi ilə izah edib.

... Üstəlik, Zatulin "boyundan yuxarı tullanaraq" Ermənistanın daxili siyasi həyatına müdaxilə edib, Paşinyanın getməli olduğunu bildirirmiş. Və hətta, Nikolu Ermənistan-Rusiya münasibətlərinə zərbə vurmaqda da günahlandırırmış.



...Yaxşı, indi Zatulin neyləməlidir? Onu İrəvana buraxmırlar, deməli, 5-10 manat... hər nə idi,.. o da daha olmayacaq. Deyilənlərə görə, Zatulin indi Paşinyanın imzaladığı "dəhliz" razılaşmasında da... daha Nikolu günahkar bilmir.

...Yəni indi o Nikolun bütün əməllərini təqdir edir...bircə ermənilər onu verdikləri cibxərcliyindən məhrum etməsinlər.

*Əli Babayev*

# Övlad, vətəndaş, şəhid...

**Dünyaya övlad gəlir. O, bir ailənin çırağını yandırmaqla bərabər, həm də Vətənin nuru, işığı, xoşbəxt günü, sabahı, azadlığı, müstəqilliyi olur. İstər oğlan, istər qız olsun, fərq etmir. Onlara hünər, cəsarət, qorxmazlıq ata qanı, ana südü ilə verilir. O ata, o ana ki, bu Vətənin övladıdır, bu Vətəndən torpaq alır, o torpağa sevgi toxumu səpir, zəhmətini çəkir, əkir, biçir, əməyi hünərə, rəşadətə, igidliyə çevrilir, qarşılığında Vətənə onu qoruyub başı üzərində gəzdirmək üçün oğul, qız verir.**





Analar dünyaya oğul gətirir. Bu oğullar torpağı qorumaq üçün doğulur. Bu oğullar Vətən üçün, onun dar günü üçün doğulur. Oğul düşmən çəpəridir, deyirlər. Oğul varsa, əsgər var. Əsgər varsa, Vətən sərhəddi var. O, qorunur. Ona görə həm də oğul torpaq payıdır, deyirlər. "Aslanın erkəyi, dişisi olmaz" deyib atalarımız. Elə şəhid qız-qadınlarımızın şücaəti, kişi qeyrəti də zaman-zaman təsdiqləyib bu deyimi. Biz görmüşük ki, tək oğullarımız deyil, həm də qızlarımız Vətən üçün can veriblər. Onlar öncə övlad, sonra əsl vətəndaş olur ki, şəhid də ola biliblər. Çünki şəhidliyə gedən yol Vətənə əsl övlad olmaqdan, onun əsl vətəndaşı olmaqdan keçir.

## Vətən sevgisi

Övladlarımız qorxmazlığı, igidliyi atalarından alır. Çünki onlar hər biri övladlarımıza öz əməlləri, cəsarət və hünərləri ilə nümunədilər. Hər bir ailədə böyüyən, tərbiyə alan oğul, qızlarımız ata-analarından əxz edirlər Vətən sevgisini. Daha sonra bağçadan, məktəbdən, cəmiyyətimizdən aldıqları bu sevgi Vətənə qarşı böyük məhəbətə çevrilir. Bu məhəbbət heç bir məhəbbətə, istəyə, sevgiyə bənzəmir. O, xüsusidir. Onda elə bir xüsusilik vardır ki, sevdiyin insanı, ata-ananı, övladını arxada qoyub önə doğru can atırsan. Öndə olan isə Vətəndir, onun sevgisi ilə özünü odun-alovun içərisinə atıb xilaskarına çevrilirsən. Aylarla, bəzən illərlə evindən-eşiyindən, doğmalarından ayrı, uzaqda qalırsan. Lakin onların hamısından əziz olanın yanında olursan. Onun sevgisi, sevdası ilə olmazın əziyyətinə dözür, günlərlə günün, yağışın altında, bəzən aylarla qarın, suyun içərisində sağlamlığından keçirsən, lakin Vətəndən vaz keçmirsən.

Vətən sevgisindən şəhidlik adlı bir yol uzanır. Bu yol böyük bir məhəbbətlə səni özünə çəkir. Bu yolu sonadək gedir hər bir oğul, qız. Lakin sonda evinə sağ-salamat qayıdanlar da olur. Bu yoldan səmalara doğru yeni bir yolçuluğa çıxıb ta əbədiyyən digər sevdiklərini o səmalardan izləyənlər də olur...

Şəhidlik xalqımızın alın yazısı olub tarixən. Nə müharibələr, nə soyqırımlar görüb bu xalq. Vətən sevgisini bütün sevgilərdən əziz, üstün tutan övladlarımız bu müharibələrin, bu soyqırımların qurbanı ola-ola şəhidlik zirvəsinə yüksəliblər. Oradan canlarını uğrunda fəda etdikləri Vətənlərini əsrlərlə, illərlədir ki, seyr etməkdədirlər...

## Müharibələr, şəhidlər...

30 il idi ki, Qarabağsız qalmışdıq. Gözü ac, nadan ermənilər hər zaman olduğu kimi, 1980-90-cı illərdə də torpaqlarımıza göz qoyaraq, onları işğal edib, "böyük Ermənistan" yaratmaq xülyasına düşmüşdülər. Bu səbəbdən də sərhədlərimizdə təxribatlar törədir, dinc, sakit insanları narahat edir, hər gün bu hadisələri bir az da qızışdırırdılar. Belə bir dövrdə ölkəmizin başında dayananların səriştəsizliyi və satqınlığı da ermənilərə kömək, dəstək oldu. Onlar bir-birinin ardınca Qarabağı və ətraf rayonları işğal edərək sakinləri evindən-eşiyindən didərgin saldı, öldürdü, meyitlərə vəhşicəsinə qəddarlıq edərək onları tanınmaz hala saldılar.

Birinci Vətən Müharibəsi adlandırdığımız həmin savaşda döyüşmək üçün bu xalqın sadiq, ürəyi vətənpərvərliklə, torpaq sevgisi ilə dolu insanları cəbhəyə yollandılar. Ölkəmiz sosial-iqtisadi tənəzzül yaşadığı bir vaxtda mükəmməl ordusu olmayan bir xalq əliyalın çıxdı düşmənin qarşısına. Və ən bağışlanmaz hal ondan ibarət idi ki, onlar dövlət tərəfindən heç bir dəstək almırdılar. Dəfələrlə xəbər göndərmələrinə, xahiş etmələrinə baxmayaraq dövlətimizə rəhbərlik edənlər susur, cəbhədən isə hər gün onlarla şəhid gəlirdi.

Sən demə torpaqlar satılıbmış. Kim olacaqdı bu əliyalın insanlara kömək edən, kim? Beləliklə minlərlə övladımız həmin ədalətsiz müharibənin qurbanı oldu. İçlərində olan Vətən sevgisi ilə qarşıya çıxdılar, son nəfəslərinədək torpaqlarımızı müdafiə etdilər. Lakin gücləri bir yerə qədər çatdı. Çünki düşmən güclü idi, havadarları tərəfindən ən müasir texnika, silah-sursatla təmin olunurdular. Biz tərəfdə isə vəziyyət tamamilə bunun əksi idi. Bu səbəbdən də şəhidlərimizin sayı-hesabı yox idi.

Ana-atalarımız hər gün səksəkədə idilər. Onların qapılarına hər an şəhid gətirilə bilərdi. Və belə də olurdu. Hər gün onlarla şəhid ailələrinə təhvil verilirdi. Nəticədə isə torpaqlarımız da düşmənin əlinə keçdi. Çünki onlar satılmışdılar. Bizim bu torpaqları canımızla, qanımızla müdafiə etməyimiz əslində heç nəyi dəyişmirdi. Bircə tarixin səhifələrinə yazdığı hünərdən, əzmkarlıqdan, Vətən sevgisindən başqa.

2020-ci ildə də 30 ilin əvvəlində olduğu kimi, qonşuluqdan kənar olmuş qonşularımız yenə yeni torpaq iddialarına düşdülər. Baxmayaraq ki, 30 ildə bütün dünyaya erməni vəhşiliyindən bəhs olunmuşdu. Bütün dünya bu iki xalq arasındakı problemlərin həllinin sülh yolu ilə həllinə çağırılmışdı, lakin dinləyənlər çox olmuş, qarşıya gələn, sözünü deyən olmamışdı. Bu səbəbdən də torpaqlarımızın müharibə yolu ilə qaytarılmasından başqa variant qalmamışdı. İkinci Vətən Müharibəsinin başlanma səbəbi də bu oldu. Və yenə də yüzlərlə şəhid verdik. Qəlbi Vətən sevgisi ilə dolu olan, əsl övlad və əsl vətəndaş olanlar şəhid oldular.

## Qarabağın həkimləri-şəhidlər

Onlar sinəsi dərdli, ürəyi yaralı Qarabağın 30 illik çarəsi tapılmayan dərdinə çarə oldular. Qarabağ xəstəliyinin, mərəzinin həkimi oldular. 30 il didərginlikdə yaşayanların sınıq qəlbinin həkimi, təbibi oldular. Sağalmayan 30 illik yaralara məlhəm oldular. Sağaltdılar Qarabağı da, qarabağlıları da şəhidlər.

44 günlük Vətən müharibəsinin fədailərinə çevrildilər. Payızın sazaq-soyuğunda Vətənin səsinə səs verib Qarabağa yollandı igidlərimiz. Ali Baş Komandanımızın əmrinə müntəzir olub böyük bir taktika ilə cəmi 44 günə torpaqlarımızı azad etdilər.

Birinci Vətən Müharibəsində iştirak edən şəhidlərimizin övladları idi bu oğullar. Onların nəvələri, qohum-əqrəbaları idilər. 30 il ürəyində düşmənə kin gəzdirən, torpaq adı gələndə başlarını dik tuta bilməyən, "işğalda torpaqlarımız var", deyib narahatlıq keçirənlər idilər. Bu namus, qeyrət işini bir an öncə dəliqanlı kimi həll etmək, qələbə əzmini bu xalqa yaşatmaq istəyənlər idilər. 30 ilin bütün acısını, 30 ilin əvvəlindəki şəhidlərimizin qisasını almaq istəyənlər, ərazi bütövlüyümüzü təmin etmək istəyənlər idilər...

Bu istəklə, amalla düz 44 gün sinəsini düşmənə sipər edən övladlarımızdan yüzlərlə şəhidlər oldu. Onlar torpağımızı, ərazi bütövlüyümüzü, qeyrətimizi, namusumuzu, şərəfimizi bizə qaytardılar. Lakin özləri o yoldan arxada qoyub getdikləri sevdiklərinin yanına qayıda bilmədilər. Vətən, torpaq sevgisi bütün sevgiləri üstələdi.

Biz 44 gündə yenidən şahidi olduq ki, Vətən üçün əsl övlad, əsl vətəndaş böyüdüb, tərbiyə edə bilmişik. Çünki yüzlərlə şəhidimiz oldu. Şəhid isə o yerdə olur ki, orada Vətənə layiq övladlar, vətəndaşlar olur. Orada Zəfər qazanılır və hər yerdə Zəfər bayrağı dalğalanır.

Allah sizə rəhmət eləsin, şəhidlər! Siz bizim qürurumuzsunuz...

***Mətanət Məmmədova***



İLHAM

# Əli Kərimlinin əmmaməli mollalardan fərqi varmı?

Hər kəsə bəlli olan fakt ondan ibarətdir ki, Azərbaycan hərbi, siyasi, iqtisadi cəhətdən dünyanın ən qüdrətli dövlətlərdən birinə çevrilib. 44 günlük Vətən Müharibəsində yağı düşmənin başını əzərək 30 il işğal altında olmuş torpaqlarımızın azadlığına nail olunması Azərbaycanın dünya miqyasında gücünə güc qatdı. Ancaq Azərbaycanın sürətli iqtisadi inkişafı, əhalinin həyat səviyyəsinin yüksəlməsindən narahatlıq keçirən, buna qısqanclıqla yanaşan xarici və daxili düşmənlərimiz üzə çıxmaqdadır. Daha doğrusu, əgər dünənə qədər gizli şəkildə Azərbaycana qarşı məkrli planlarını həyata keçirməyə çalışırdılarsa, bu gün artıq açıq şəkildə bəd niyyətlərini büruzə verməklə, Azərbaycanın dünyada artan nüfuzuna xələl gətirməyə çalışırlar. Bu baxımdan, bir qrup müxalif məxluq ölkədə sabitliyi pozmaq, demokratik proseslərə əngəl törətmək məqsədilə qeyri-qanuni addımlar atmaqdan belə çəkinmirlər. Son vaxtlar AXCP, Müsavat və bu kimi digər dağıdıcı xislətli müxalifət partiyalarının və onlarla eyni təfəkkürə malik xaricdəki "söyüş müxalifət" qisminin insanları küçələrə çıxmağa və icazəsiz aksiyalar keçirməyə təhrik etməyə cəhd göstərmələri də bundan xəbər verir. Fikir versəniz bəlli olar ki, AXCP və Müsavat kimi partiya funksionerləri hələ də köhnə təfəkkürlə yaşayır, öz şəxsi və qrup maraqlarını hər şeydən üstün tuturlar. Bu üzdəniraq məxluqların əsas məqsədləri bütün vasitələrlə ölkədə iğtişaşlar törətmək, ictimai-siyasi sabitliyi pozmaqdır. Təbii ki, məkrli istək və arzularına çata bilmirlər. Çünki cəmiyyətdə hər kəsə məlumdur ki, insanları mitinqə çağıran müxalifət liderlərinin bir-birinə düşmən münasibəti hökm sürür. Həm də mitinqə çağırış edənlərin arxasında onları maddi və mənəvi cəhətdən təmin edən xarici maraqlı dairələrin dayandığını cəmiyyət başa düşür. Ona görə də ictimaiyyətin dağıdıcı müxalifəti qətiyyətlə rədd edir.

Artıq bir neçə həftədir ki, AXCP sədri Əli Kərimlinin istək və tələbi ilə üç-beş nəfərin iştirakı ilə Bakı Şəhər İcra Hakimiyyətinin önündə icazəsiz aksiyaların keçirilməsinə cəhdlər göstərilir. Sual yaranır, nədən icazəsiz və niyə məhz Bakı Şəhər İcra Hakimiyyətinin qarşısı? Bu başdan qeyd etmək lazımdır ki, AXCP -nin keçirdiyi piketlərin məqsəd və məramı bəlli deyil. Digər tərəfdən, aksiyaların icazəsiz keçirilməsi onların polislə toqquşmaya getməkdə maraqlı olduqlarını göstərir. Çünki qanunvericiliyə görə, polis şəhərdə asayişi qorumağa məsuldur və istənilən təxribatçı əməllərin qarşısını almaqda qanuni haqqa malikdir. Bunu gerizəkalı müxaliflər də anlayırlar. Ancaq polislə qarşıdurma zamanı şəkillərinin çəkilərək ağalarına göndərilməsi və maliyyə boslarından "malades" mükafatının alınması onlar üçün qanundan daha önəmlidir. Şəhərin mərkəzində, əhalinin sıx gedib-gəldiyi, nəqliyyatın müntəzəm hərəkət etdiyi məkanda aksiyaların keçirilməsinə cəhd edilməsi onların hələ də meydan təfəkküründə qaldıqlarını göstərir. Açıq desək, Ə.Kərimli fars molla rejiminin əmmaməli mollalarından heç nə ilə fərqlənmir. Təfəkkürü, düşüncəsi və digər parametrləri eynən əmmaməli mollalar kimidir. Əmmaməli mollalar da fətva verir, bozbaş ünsürlər yerinə yetirməyə çalışırlar, Ə.Kərimli də xarici ağalarının istəyinə uyğun olaraq icazəsiz aksiya qərarı verir və bu qərarı da məram və məqsədlərini anlamayan ünsürlər icra etməyə çalışılar. Deyən lazımdır, əgər doğrudan da könlündə biclik, əməlində riyakarlıq yoxdursa, niyə o zaman nişan verilən məkanlarda aksiyalarınızı keçirməyə cəhd etmirsiniz? Şübhəsiz ki, Bakı Şəhər İcra Hakimiyyətinin təqdim etdiyi yerlərə insan yığmaq, planlara müvafiq aksiyalar keçirmək mümkünsüzdür. Yəni sosial bazaları olmadığı üçün o yerlərə insan yığmaq da mümkün deyil. Gülüş doğuran məqamlardan biri də ondan ibarətdir ki, kərimovçular icazəsiz aksiyalar zamanı saxlanılan şəxslərin azadlığa buraxılmasını özlərinin "qəhrəmanlığı" kimi təqdim etməyə çalışırlar. Ancaq bu əmmaməli mollaların tay-tuşları anlamırlar ki, dünyanın hər bir yerində icazəsiz aksiya keçirənlər saxlanılır, izahatları alındıqdan sonra sərbəst buraxılırlar. Nə isə, bu da belə. Sabah Ə.Kərimlinin fars molla rejiminin əmmaməli mollaları ilə bir sırada bir-birinin üzünə irişən fotosuna rast gəlsəniz təəccüblənməyin. Atalar misalıdır, "su axıb, çuxurunu tapar".

# İqor Korotçenko: "Qərb Rusiya, Türkiyə və Azərbaycana qarşı təxribatlar hazırlayır"

**Politoloq, "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko "Moskva-Baku" portalına müsahibəsində regionumuzda gedən proseslər haqda maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.**



***- Nikol Paşinyan yəqin ki, vabank getdi. Əgər əvvəlcə söhbət Ermənistan və Azərbaycan sərhədinə Aİ missiyasının göndərilməsindən gedirdisə, indi İrəvan onu ATƏT missiyası ilə gücləndirməyə çalışır və bunun üçün əzmlə çalışır... Paralel olaraq, İrəvana bir ayda artıq ikinci dəfə, Ermənistana dəstək məqsədilə Aİ parlamentinin nümayəndə heyəti səfər edir.***

- Ermənistanın məqsədi bəllidir-Azərbaycanla sülh sazişi imzalamaq istəmədiyinə görə Cənubi Qafqaza xarici oyunçuları, ilk növbədə Avropa İttifaqını, eləcə də ABŞ-ı cəlb etməkdir. İrəvanın Aİ vasitəsilə ATƏT-dən istifadə etmək və Qarabağdakı separatçıların bədnam statusu məsələsini gündəmə gətirmək üçün Minsk Qrupunu dirçəltmək istəyi bundan irəli gəlir.

Paşinyanın Rusiyadan qopması və ayrılması göz qabağındadır. Düşünürəm ki, İrəvan artıq bu istiqamətdə siyasi qərarlar verib, Ermənistanın KTMT-dən və Rusiya Federasiyasının müttəfiqi olmaqdan nə vaxt çıxacağı zaman məsələsidir. Bu, gələn ilin əvvəlində baş verə bilər. Hər şey konkret siyasi situasiyadan asılı olacaq və bu gün Rusiyanın bütün səylərinin Ukraynaya yönəldiyini hiss edən Paşinyan yalan danışmaq fürsətindən maksimum yararlanmağa çalışdığından, Ermənistanın tam olaraq Qərbin təsiri altına keçməsi xüsusi hərbi əməliyyatın uzanıb-uzanmayacağı ilə müəyyənləşəcək.

Biz Qərbin Qarabağın statusu məsələsində israr etmək istəyini görürük. Dövlət Departamentinin mövqeyi ABŞ-ın ədalətli sülh müqaviləsini təşviq etməyə nə dərəcədə hazır olduğu və ya ikili standartların ənənəvi olaraq işləyəcəyi və istənilən an geri dönmə variantlarının olub-olmayacağı tam aydınlaşdırılmayıb. Danışıqlar gizli şəkildə, gizli rejimdə gedir. Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın ABŞ-a gələrkən və xüsusən də Mərkəzi Kəşfiyyat İdarəsinin qərargahını ziyarət edərkən nədən danışdığı məlum deyil. Belə səfərlər çox şeydən xəbər verir.

Vladimir Zelenskinin Britaniyanın Mi-6-nın qərargahına necə baş çəkdiyini və sonra Ukrayna trasında vəziyyətin kəskin şəkildə gərginləşməsini xatırlayırıq. Eyni şəkildə Qriqoryan ABŞ-ın maraqları naminə Paşinyanın adından Mərkəzi Kəşfiyyat İdarəsinin qarşısında müəyyən öhdəliklər verə bilərdi.

Bir tərəfdən Ermənistan Azərbaycanla sülh müqaviləsi üzrə danışıqlar aparır. Ancaq bizim heç bir illüziyamız olmamalıdır- o, hər an silahlı təxribat törədə bilər. Üstəlik, İrəvanın Hindistandan MLRS aldığını və İrandan kamikadze dronları almağa çalışdığına dair sübutlar var. Yəni, faktiki olaraq, Ermənistan qətiyyən sülhə hazırlaşmır, əksinə, NATO dövlətlərinin hərbi kontingentini cəlb etmək üçün onsuz da Qərb dövlətlərinin dəstəyi ilə yeni genişmiqyaslı hərbi münaqişəyə başlayır.

Paşinyan situasiya oyunu oynayır. Onun bir çox addımları əvvəlcədən bəlli deyil, amma biz tendensiyalardan danışırıq. Və tendensiyalar elədir ki, Ermənistandan yeni iyrəncliklər və təxribatlar gözləmək olar. Bu cür təxribatların həyata keçirilməsində Aİ və ATƏT kömək edəcək. ATƏT çoxdan özünü gözdən salıb və Rusiya bu barədə dəfələrlə danışıb. Amma bizim bunu bəyan etməyimiz, təəssüf ki, Ermənistanın qeyri-regional oyunçuların dəstəklədiyi ATƏT-in Minsk Qrupunu reabilitasiya etmək, müşahidəçi göndərmək cəhdləri faktı baxımından heç nəyi dəyişmir. İndi bizim qiymətləndirmələrimizdən çox az şey asılıdır, hər şeyi real hərbi-siyasi vəziyyət müəyyən edir.

Paşinyan artıq missiyaların qeyri-müəyyən müddətə uzadılması barədə danışmağa başlayıb. Azərbaycan dəfələrlə ATƏT formatlarından birinin, yəni 30 ilə yaxındır Azərbaycan və Ermənistan arasında münaqişənin həlli ilə uğursuz şəkildə məşğul olan Minsk Qrupunun səmərəsizliyini qeyd edib. Rəsmi Bakının fikrincə, bu formatın məqsədi münaqişənin həlli deyil, Ermənistanın Azərbaycan ərazilərini işğal altında saxlamaqla onu dondurmaq olub.

Aİ və ATƏT missiyalarından hər şeyi gözləmək olar. Missiyalar "qazsız "Cermuk" suyu içmək üçün" Ermənistan ərazisinə gedirlər. Qərbin kəşfiyyat xidmətləri ilə əlaqəli ciddi kadr təcrübəsi olan insanlar gəlir. Qlobal miqyasda söhbət Cənubi Qafqazda yeni gərginlik ocağının yaradılmasından gedir. Cənubi Qafqaz regionunda yeni müharibə Qərbin geosiyasi məqsədlərinə cavab verir. Məqsəd regionda sabitliyi pozmaq, bu gün Rusiya üçün ən mühüm strateji layihələrdən biri olan və Azərbaycan ərazisindən keçən "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsinin həyata keçirilməsinin qarşısını almaqdır. Azərbaycanla Ermənistan arasında potensial müharibə, kənar oyunçuların buraya cəlb olunması ən azı Qərb güc mərkəzlərinin geosiyasi məqsədlərinə cavab verir.

Qərb öz missiyalarını sərhəddə yerləşdirdikdən sonra hər ehtimala qarşı Azərbaycana qarşı ittihamları özünə alət edəcək. Azərbaycan, şübhəsiz ki, Cənub Qaz Dəhlizi vasitəsilə etibarlı karbohidrogen tədarükü mənbəyi kimi Avropa İttifaqı üçün vacibdir. Amma Rusiya da Avropaya karbohidrogenlər verirdi. İndi gördüyümüz odur ki, vəziyyət 180 dərəcə çevrilib. Ona görə də Avropanın etibarlı enerji resursları təchizatçısı statusu o demək deyil ki, müəyyən siyasi və hərbi qərarlar Azərbaycana qarşı istifadə edilməyəcək.

Biz artıq son aylarda Azərbaycana qarşı müxtəlif səviyyələrdə təzyiqlərin həm ölkənin müxtəlif ştatlarda, əsasən də Qərb mərkəzlərindəki səfirliklərinə hücumlarda, həm Fransa və ABŞ-da birbaşa anti-Azərbaycan bəyanatlarında ifadə olunduğunu görürük. Avropa missiyaları Ermənistanın Azərbaycanla sərhədinə yerləşir.

Biz Azərbaycanın London və Parisdəki səfirliklərinin başına gələnləri çox gözəl başa düşürük: hüquq-mühafizə orqanlarının hücumları dayandırmaq üçün hər cür imkanı var idi. Amma bu edilməyib, konkret desək, qəsdən edilməyib. Rusiyada da Moskvanın maraqlarına zidd olan ermənipərəst lobbiçilərin müəyyən qruplarının fəallaşmasının şahidi oluruq. Həm Rusiya, həm də Azərbaycan istənilən mənfi ssenarilərə qarşı hazır olmalıdır.

***- Nə üçün Azərbaycan Aİ-nin Ermənistan sərhədində missiyası ilə bağlı təklifinə qəti şəkildə yox demədi?***

- Diplomatiya mümkün olanın sənətidir. Axı Azərbaycan diplomatiyasının Avropa missiyasının göndərilməsi ilə bağlı mövqeyi kifayət qədər aydın idi: biz missiya ilə milli maraqlarımıza uyğun gələn qədər qarşılıqlı fəaliyyət göstərəcəyik. Azərbaycan bu insanların Ermənistan ərazisinə gəlməsinin qarşısını ala bilməz. Rusiya da edə bilməz. Hər halda bu müşahidə qrupu, çox güman ki, Azərbaycanın etirazına baxmayaraq, ora yerləşdiriləcəkdi.

***- İkinci Qarabağ Müharibəsindən sonra çoxları deyirdi ki, Paşinyan Ermənistanla Azərbaycan arasında sülhə meyilli olan Ermənistan lideridir, çünki digər məsələlərlə yanaşı, o, "Qarabağ klanı"na aid deyil. İndi görünən odur ki, o özünü "Qarabağ klanı"nın keçmiş liderləri kimi aparmağa başlayıb, üstəlik, Qərbi bölgəyə gətirib, bundan öz maraqları üçün istifadə etməyə çalışır.***

- Artıq müxtəlif regional nöqtələrdə müstəsna olaraq Rusiyaya qarşı yönəlmiş, lakin Cənubi Qafqaz da daxil olmaqla onun müttəfiqlərinə qarşı yönəlmiş oyun hüdudlarını aşan çox mürəkkəb, çox mövqeli qlobal oyun başlayır. Qərbə dünyanın əsas regionlarında və enerji resurslarında hökmranlıq lazımdır. Bu, başqa şeylərlə yanaşı, öz siyasətlərini həyata keçirməyə qadir olan suveren dövlətlərin sıradan çıxarılmasını tələb edir.

Azərbaycana dost olan Türkiyə ilə Rusiya əməkdaşlığı ciddi şəkildə gücləndirdiyi üçün hansısa irimiqyaslı sabitliyi pozma planı hazırlanır. Prezidentlər Putin və Ərdoğan Türkiyə Respublikasında ən böyük enerji mərkəzinin yaradılması ilə bağlı razılığa gəliblər. Bu vəziyyət Rusiyanı təcrid etmək və ona qarşı sanksiya təzyiqlərini artırmaq istəyən Qərbin maraqlarına cavab vermir. Və təcrid baş vermir, əksinə, Rusiya yeni geosiyasi xəritə qurur, buna misal olaraq Türkiyə ilə yeni irimiqyaslı layihələrə start vermək olar. Beləliklə, Türkiyə Böyük Britaniya və ABŞ-ın geosiyasi rəqibinə çevrilir. Türkiyə Qərb üçün boğaz sümüyə çevriləndə Azərbaycanın üzərinə əlavə hərbi və siyasi risklər proqnozlaşdırıla bilər ki, bu da əvvəlcədən hesablanmalıdır.

Dünya balanssız olanda istənilən ssenari mümkündür. Şimal Axını-1 və Şimal Axını-2-dəki təxribatdan sonra ağlasığmaz görünən şeylərin reallığa çevrilməsi baxımından artıq heç nəyə təəccüblənmirəm.

"Türk axını"nda təxribatı istisna edə bilərikmi? Edə bilmərik. Və belə şeyləri istisna edə bilmədiyimiz üçün "Türk axını"nın dəniz hissəsində müxtəlif təxribatların qarşısını almaq üçün Qara dənizdə Rusiya-Türkiyə birgə hərbi dəniz qruplaşmasının yaradılmasına dair ciddi qərarlar qəbul etməliyik. Həmçinin, "Akkuyu" AES-i hava hücumundan müdafiə sistemləri ilə əhatə etmək lazımdır.

Gələn il keçiriləcək prezident seçkiləri ərəfəsində Türkiyədə yeni çevriliş cəhdlərini istisna edə bilmərik. Türkiyə qlobal miqyasda enerji qovşağı olaraq bir çox qüvvələrə uyğun gəlmir. Ümumiyyətlə, bu gün vəziyyət elədir ki, Rusiya ilə Türkiyə, Rusiya ilə türk dünyası bir qayıqdadır. Dünyanın adi mənzərəsi məhv olursa və dünya əvvəlki kimi olmayacaqsa, biz sadəcə situasiya müttəfiqi olmamışıq, bu gün bu ittifaq dövlətlərimizin davamlı inkişafı üçün həyati əhəmiyyət kəsb edir.

Bizi- Rusiya, Azərbaycan, Türkiyəni birləşdirən nədir? Bu ölkələri xarici təzyiq altında əyilməyən güclü liderləri birləşdirir. Bizim qoruduğumuz öz milli maraqlarımız var, çox mühüm geosiyasi mövqeyə malikik, qlobal enerji bazarında əsas oyunçularıq. Və bunların hamısı çox vacib məqamlardır. Bizim uzunmüddətli inkişaf baxımından ümumi maraqlarımız var. Bir-birimizi dəstəkləməklə biz öz mövqelərimizi gücləndirə bilərik ki, bu da indiki vəziyyətdə son dərəcə vacibdir. Qərb isə bizim dostumuz deyil. Sadəcə olaraq, Rusiya onunla daha sərt, Türkiyə və Azərbaycan isə daha az münaqişə formatındadır, lakin buna baxmayaraq, Ankara və Bakı yaxşı bilirlər ki, onlar üçün risklər də böyükdür və ona görə də konsolidasiya lazımdır. Vəziyyət bir daha göstərir ki, məhz Azərbaycan Rusiyanın tam ölçüdə strateji müttəfiqidir. Azərbaycan regionun əsas ölkəsidir.

Ermənistan isə regionda vəziyyəti gərginləşdirməkdə davam edir, üstəlik, genişmiqyaslı təxribat məqsədi ilə Qərbi regiona cəlb edərək, Azərbaycanla sülh prosesini pozmaqla birbaşa Rusiyanın əleyhinə gedir. Görünür, Ermənistan özü üçün vektor seçib və o, heç də rusiyapərəst deyil. Qərbə regiona daxil olmaq imkanı verən Ermənistan troya atı rolunu oynayır ki, onun pərdəsi altında NATO-nun hərbi komponentləri birdən-birə reallaşa və Cənubi Qafqazda yerləşə bilər. Ermənistan sadəcə olaraq digər dövlətlərin üzərində parazitlik etmək istəyən Qərb siyasətçilərinin əlində sövdələşmə obyektidir.

Hesab edirəm ki, bu gün ümumiyyətlə Rusiya-Türkiyə geosiyasi strateji birliyi formatına getmək lazımdır. Zamanın özü, vəziyyət bizi buna sövq edir.

Və biz bu ittifaqdan başqa şeylərlə yanaşı, Qərbin Cənubi Qafqazda hərəkətlərinin qarşısını almaq üçün istifadə etməliyik. Fəaliyyətlərimizin daha çox koordinasiyasına ehtiyac var. Mən digər məsələlərlə yanaşı, Rusiya və türk dövlətlərinin birgə kəşfiyyat komitəsinin yaradılmasının tərəfdarıyam. Biz təcili olaraq, mümkün qədər tez ümumi aydın əks-hərəkət siyasəti qurmalıyıq. Risklər bu gün həddsiz dərəcədə artdığından... Onlar reallığa çevrilə bilər, hətta ən mənfi ssenarilər də. Bundan əlavə, ekspert qarşılıqlı fəaliyyəti tamamilə yeni səviyyədə, Xarici İşlər Nazirlikləri ilə xüsusi xidmət orqanları arasında qarşılıqlı fəaliyyət tələb olunur.

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" çərçivəsində hazırlanıb.

# Banişevskinin nəvəsi:
# "Son illər Azərbaycan klublarının oyunlarını izləmək çox xoşdur"



**Azərbaycan futbolunun əfsanəvi, "Neftçi"nin keçmiş bombardiri Anatoli Banişevskinin nəvəsi, futbolçu Əli Banişevski "Caliber.Az" müsahibəsində futbol dünyasında baş verənlər və Azərbaycan futbolu haqda maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.**

*- Oxucularımıza özünüz haqqında məlumat verərdiniz...*

- 1996-cı ildə Bakıda anadan olmuşam. Mənim bütün həyatım futbolla bağlı olub. Uşaq vaxtı ən sevimli oyuncağım belə futbol topu idi. Və əfsanəvi futbolçu Anatoli Banişevskinin nəvəsi olduğumu nəzərə alaraq deyə bilərəm ki, mənim qismətim futbolla bir yerdədir. Babamı xatırlamıram, çünki o, məndən bir il sonra vəfat edib. Buna baxmayaraq, onun şöhrəti bütün həyatım boyu məni müşayiət edir. Onun haqqında nəinki qohumlarımdan çox eşitmişəm, ona görə də mənə elə gəlir ki, babamı çox yaxşı tanıyıram.

Futbola olan sevgimi nəzərə alaraq, məni idman məktəbinə göndərdilər. "İnter" klubunda keçmiş futbolçu məşhur Roman Cəfərovla birgə məşq etmişəm. Sonra "Neftçi" klubunda oynamağa başladım. Məni İslam Kərimov hazırlayıb. Əminliklə deyə bilərəm ki, "Neftçi" klubunun yetirməsiyəm. Orduya çağırılanda Mərkəzi Ordu İdman Klubunun (MOİK) futbol komandasında oynamağa başladım. Hərbi xidmətdə olduğum üçün icarə əsasında oynayırdım.

*- Sonrakı idman karyeranız necə inkişaf etdi?*

- Hərbi xidməti başa vurduqdan sonra Litvaya getdim. Bir müddət sonra Kiyevin "Arsenal" klubundan təklif aldım və Ukraynaya köçdüm. Bu ölkədə idman, o cümlədən futbol yüksək səviyyədə inkişaf edib.

Təəssüf ki, maliyyə səbəblərinə görə "Arsenal" klubu dağıldı və mən "Çayka" komandasına keçdim. Bundan sonra məni "Niva Buzova" klubunda gördülər. Bu klubun sahibi Oktay Əfəndiyevdir. Onun haqqında çox yaxşı şeylər deyə bilərəm. O, adı böyük hərflə yazılmış bir adamdır. O, məni daim diqqətlə əhatə etdi və idman karyeramı davam etdirməyim üçün hər cür şərait yaratdı. O, təkcə mənə deyil, hamıya qarşı diqqətlidir. "Niva Buzova" klubu Ukrayna çempionatının 2-ci Liqasında 1-ci yeri tutur. Əminəm ki, Oktay Əfəndiyevin yaxın və həssas rəhbərliyi altında klub böyük uğurlar qazanacaq. Mən Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun sədri Hikmət Cavadovdan da diqqət və qayğı hiss etdim. Onunla çox yaxşı dost olduq.

*- Anatoli Banişevskinin adı Ukraynada nə qədər tanınır?*

- Mənə və soyadıma hörmət çox böyük idi. Ukraynada Anatoli Banişevski haqqında çox adam bilir. Bir qonşum var idi, soyadımın Banişevski olduğunu biləndən sonra məşhur futbolçunun qohumu olub-olmadığımı soruşdu. Təbii ki, babamın soyadı mənim üzərimə böyük məsuliyyət qoyur. Məndən həmişə daha çox şey tələb olunurdu. Başqalarının ümidlərini doğrultmalıyam. Mənim babam futbol əfsanəsi idi. O, uşaqlıqdan mənim kumirim olub. Anam mənə babam haqqında çox danışırdı, amma onun haqqında ən çox nənəm İnna Banişevskaya danışırdı.

Hətta tanımadığım adamlar da Banişevskinin nəvəsi olduğumu biləndən sonra babam haqqında çox yaxşı danışırdılar. Hətta haradasa oxumuşdum ki, hələ Sovet vaxtı Heydər Əliyev Banişevskiyə "Volqa" avtomobili ayırıb. Bir akademik qəzəblənib: "Niyə maşını mənə yox, Banişevskiyə verirsən?" Heydər Əliyev cavab verib: "Bilirsiniz, biz Banişevskidən akademik çıxara bilərik, amma akademikdən Banişevski yox. O bizdə yeganədir".

*- Bildiyimə görə, hazırda Polşadasınız...*

- Təəssüf ki, müharibə karyeramda düzəlişlər etdi. Rusiyanın Ukraynaya müdaxiləsi başlayanda Azərbaycan diasporu öz soydaşlarını köçürməyə başladı. Qadın və uşaqları qatarla Polşaya apardılar. Ailəmi də çıxardım. Burada Çexiyanın "Dinamo" (Çeske Budejovice) klubundan təklif aldım. Bu klubla təlim-məşq toplanışları keçdim, yarım mövsüm birlikdə olduq, amma yollarımız ayrıldı. Hazırda Polşanın "Zamek Kamieniets" klubu ilə işləyirəm, amma yerim hələ də "Niva Buzova"da olduğu üçün bunun müvəqqəti olduğuna inanıram. "Niva Buzova"nı çox bəyəndim və bu klubu başqasına dəyişmək istəməzdim. Amma şərait mənim klubdan ayrılmağıma səbəb oldu. Yenidən "Niva Buzova"dan təklif gəlsə, o zaman tərəddüd etmədən qayıdacam.

*- Azərbaycan futbolunun hazırkı durumu haqqında nə deyə bilərsiniz?*

- Son illər "Qarabağ", "Sabah" və "Neftçi" klublarının oyunlarını izləmək çox xoşdur. Azərbaycanda istedadlı futbolçular çoxdur, amma 15 ildən sonra idmançı kimi yetişmirlər. Səbəb nədir bilmirəm. Ukraynada inkişaf hiss olunur. Uşaq futbolu gənclər futboluna çevrilir və bundan sonra insanlar peşəkar klublarda oynaya bilirlər. Rayondan tutmuş vilayətə kimi hər yerdə futbolun inkişafı hiss olunur. Ukraynada peşəkar futbolla məşğul olan heç kəs komandasız qalmayacaq. Azərbaycanda çox az futbol komandası var və bir çox idmançı karyerasının lap zirvəsində klubsuz qalıb.

*- Futboldan başqa hobbiniz varmı?*

- Əlbəttə var. Mən stolüstü tennis oynamağı sevirəm. Mən yüksək informasiya texnologiyaları ilə çox maraqlanıram.

***Tərcümə - Elçin Bayramlı***

**Bakıda 3 qız itkin düşüb, onlardan biri tapılaraq sığınacağa yerləşdirilib. SİA-nın məlumatına görə, Yasamal rayon sakini 2007-ci il təvəllüdlü Hətəmxanova Zilan yaşadığı ünvandan çıxıb naməlum istiqamətə gedərək itkin düşüb. Faktla bağlı Yasamal Rayon Polis İdarəsinin (RP) 28-ci Polis Bölməsində (PB) araşdırma aparılır.**

# Bakıda 3 qız itkin düşüb



Həmçinin, 2008-ci il təvəllüdlü Allahverdiyeva Şəlalə "Nərimanov" parkından naməlum istiqamətdə gedib və geri qayıtmayıb. Faktla bağlı araşdırma Nərimanov RPİ-də aparılır. Səbail Rayon Polis İdarəsinin 8-ci PB-nin və Çevik Polis Alayının əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində 8 gün əvvəl itkin düşmüş 15 yaşlı qız paytaxt ərazisində tapılaraq sığınacağa yerləşdirilib.

# Bir gündə yol qəzalarında 4 nəfər ölüb

Ötən gün yol qəzalarında 4 nəfər ölüb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, respublikanın avtomobil yollarında ölümlə nəticələnən 4 yol-nəqliyyat hadisəsi baş verib. Qeyd olunub ki, yol qəzalarında 4 nəfər ölüb.



# Masallıda ev yanıb

Masallı rayonunun Kəlbəhüseynli kəndində ümumi sahəsi 180 m² (hər mərtəbəsi 90 m²) olan ikimərtəbəli, 5 otaq və aynabənddən ibarət evin 2-ci mərtəbəsinin və dam örtüyünün yanar konstruksiyaları yanıb. Fövqəladə Hallar Nazirliyindən SİA-ya verilən məlumata görə, evin qalan hissəsi yanğından mühafizə olunub. Yanğın yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.



**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600